

# QANUNÇULUQ

**HÜQUQ JURNALI**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı**




**№ 2 - fevral 2018**

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



***Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



QANUNÇULUQ
HÜQUQ JURNALI
№ 02 FEVRAL 2018

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:


**RƏSMİ MƏLUMAT**

“Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli 3638 nömrəli Sərəncamı....................................5
Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak edib ...............................................................6

**ƏDLİYYƏ NAZİRLİYİNDƏ**

Xocalı soyqırımı qurbanlarının xatirəsi ədliyyə orqanlarında yad edilib........................................................................................8
Ədliyyə naziri Cocuq Mərcanlıda vətəndaşları qəbul edib......................8
Azərbaycan Hökuməti və BQXK səmərəli əməkdaşlıq edir..................10
Dövlət gənclər siyasəti ədliyyə orqanlarında uğurla həyata keçirilir ...................................................................11

**İCLASLAR, MÜŞAVİRƏLƏR**

Milli Məclisdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə dinlənilib ................................12
Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə (2017-ci il üzrə) *(Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Vilayət Zahirovun Milli Məclisdə çıxışı)* ....................13
Mərkəzi Seçki Komissiyasında dairə seçki komissiyalarının sədrləri üçün seminar-müşavirə keçirilib ..............................................19
Seçki prosesində ədliyyə orqanları və məhkəmələrin rolu *(MSK-da dairə seçki komissiyalarının sədrləri üçün keçirilmiş seminar-müşavirədə Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Azər Cəfərovun çıxışı)* ...................................................................20
Penitensiar xidmətdə MSK üzvlərinin iştirakı ilə müşavirə ..................23
Mütərəqqi məhkəmə islahatları uğurla davam etdirilir ..........................24

**BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**

Avropa Şurası ilə hüquqi sahədə səmərəli əməkdaşlıq davam edir ............................................................................26
Birləşmiş Ərəb Əmirlikləri ölkəmizlə ədliyyə sahəsində əməkdaşlığın inkişafında maraqlıdır....................................................27

**MƏLUMATLAR, ELANLAR...**

Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti açıq müsabiqə elan edilib ............................................................................28
Ədliyyə orqanlarına informasiya-kommunikasiya texnologiyaları üzrə mütəxəssislərin qulluğa qəbulu ilə bağlı açıq müsabiqə davam edir....29
Ədliyyə Nazirliyinin Mətbuat xidmətinin məlumatı...............................30
Penitensiar xidmət yeni kadrlarla komplektləşdirilir ..............................30
Penitensiar müəssisələrdə yeni istehsal sahələri yaradılır ..................31
Hakimliyə namizədlərlə tədrisin nəticələri üzrə yazılı imtahan keçirilib ...................................................................32













## MƏLUMATLAR, ELANLAR...



Avropa Şurası ilə ədliyyə sahəsində yeni layihə təşviq olunur ............32
Ədliyyə Akademiyasında hakimlər üçün distant təlim keçirilib ............33
Hakimlərin və məhkəmə aparatı işçilərinin ixtisaslarının artırılması diqqət mərkəzindədir ..........................................................................34
Bələdiyyələrin hüquqi maarifləndirilməsi üçün ardıcıl tədbirlər görülür ..........................................................................35

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 934-VQD nömrəli Qanunu ..........................36
"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 980-VQD nömrəli Qanunu ....37
"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 981-VQD nömrəli Qanunu ..............................37
"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 999-VQD nömrəli Qanunu ..38
"Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən Çıxarış"ın və "Torpaq sahəsinin planı və ölçüsü"nün təsvirlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 17 iyun tarixli 553 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 fevral tarixli 1840 nömrəli Fərmanı ............39
"Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral tarixli 3707 nömrəli Sərəncamı ..............................39



**Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında**

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq **qərara alıram:**

1. Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilsin.

2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2018-ci il aprelin 11-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 5 fevral 2018-ci il*
*N 3638*

# Prezident İlham Əliyev Xocalı soyqırımı qurbanlarının xatirəsini anım mərasimində iştirak edib




**1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu faciədən 26 il keçir. Həmin kütləvi qırğın nəticəsində 106-sı qadın, 63-ü uşaq, 70-i qoca olmaqla 613 nəfər amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edirlər.**

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar anım mərasimində iştirak etmək üçün fevralın 26-da Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva anım mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı abidənin önünə əklil qoyub, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirib.

Birinci vitse-prezident Mehriban Əliyeva, Baş



nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev abidənin önünə gül dəstələri qoyublar.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak ediblər.

Anım mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzüblər.

Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etdilər.

Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları və başları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.

Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etdi.

Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras və digər ölkələrin parlamentləri, eləcə də ABŞ-ın bir sıra ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.

# Xocalı soyqırımı qurbanlarının xatirəsi ədliyyə orqanlarında yad edilib

**XX əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımından 26 il ötür.**

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri tərəfindən keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin iştirakı ilə Xocalı şəhərinin zəbt olunması, işğal nəticəsində şəhərin büsbütün darmadağın edilməsi, dinc əhaliyə amansız divan tutulması, o cümlədən qadınların, uşaqların və qocaların xüsusi qəddarlıqla qətlə yetirilməsi, neçə-neçə ailənin tamamilə məhv edilməsi, dövlətin və əhalinin əmlakının zorakılıqla və vəhşicəsinə talan edilməsi xalqımıza qarşı törədilən misli görünməmiş vandalizm aktıdır.

Xocalı soyqırımının ildönümü ilə əlaqədar Ədliyyə Nazirliyində və struktur qurumlarda anma mərasimləri keçirilərək şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, erməni qəsbkarlarının azərbaycanlılara qarşı əsrlər boyu həyata keçirdiyi etnik təmizləmə siyasətindən, o cümlədən Xocalı soyqırımının ağır nəticələrindən bəhs olunub və bu bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə ölkə Prezidentinin cari ilin yanvarında imzaladığı "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamının müstəsna əhəmiyyəti vurğulanıb.




Bildirilib ki, erməni qəsbkarlarının törətdikləri Xocalı soyqırımı beynəlxalq hüquqa görə, sülh və bəşəriyyət əleyhinə yönələn əməldir, ən ağır beynəlxalq cinayət sayılır və bu zaman BMT-nin "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyasında təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.

Tədbirlərdə bu qanlı faciəyə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra siyasi-hüquqi qiymət verildiyi, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən Xocalı qətliamı barədə həqiqətlərin dünya ictimaiyyətinə geniş çatdırılması və bununla bağlı Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Xocalıya ədalət" kampaniyasının uğurla davam etdirilməsi qeyd olunub, soyqırımı törədənlərin layiqli cəzalarını alacaqlarına əminlik ifadə edilib.

Xocalı faciəsi ilə bağlı nazirliyin kinozalında filmlər, foto-slaydlar nümayiş etdirilib, saytda ayrıca bölmə yaradılıb.

# Ədliyyə naziri Cocuq Mərcanlıda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq fevralın 23-də ədliyyə naziri Fikrət Məmmədov Cəbrayıl rayonu Cocuq Mərcanlı kəndində Cəbrayıl, Füzuli və Beyləqan rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müra-










ciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı, həmçinin bölgənin ədliyyə işçiləri və hakimləri ilə müşavirə keçirilərək ədliyyə və məhkəmə fəaliyyətində şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması qeyd edilib, vətəndaşlara daha həssas və qayğı ilə yanaşılmasının vacibliyi bildirilib.

Cocuq Mərcanlı kəndinə səfər çərçivəsində ədliyyə naziri və Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, önünə gül dəstələri düzüblər.

Eyni zamanda işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində dövlət başçısının tapşırıqlarına uyğun olaraq qısa müddətdə görülmüş geniş quruculuq işləri, o cümlədən müasir infrastrukturla, yeni tikilmiş məktəb binası ilə tanış olunub, binada ulu öndər Heydər Əliyevin büstü önünə tər çiçəklər qoyulub, Ədliyyə Nazirliyi tərəfindən məktəb üçün kompüter dəsti hədiyyə edilib. Həmçinin, ölkə Prezidentinin kənddə tikdirdiyi Şuşa Məscidinin bənzəri olan məscid ziyarət olunub.



*Ölkə Prezidenti cənab İlham Əliyevin Cocuq Mərcanlıda tikdirdiyi Şuşa məscidinin bənzəri olan məscid*

Səfər zamanı yerli sakinlərlə görüşülərək onların şəraiti və qayğıları ilə maraqlanılıb, sovqatlar paylanılıb.

Sakinlər kənd azad edildikdən sonra Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə Cocuq Mərcanlı kəndinin yenidən qurulduğunu, insanların təhlükəsiz yaşayışının təmin edildiyini bildirib, ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

# Azərbaycan Hökuməti və BQXK səmərəli əməkdaşlıq edir

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə insan haqlarının, o cümlədən cəmiyyətimizin həssas təbəqəsi olan məhkumların hüquqlarının təmin olunmasına xüsusi diqqət yetirilir, penitensiar sistemdə məqsədyönlü islahatlar aparılır, qanunvericilik təkmilləşdirilir, məhkumların islah prosesində ictimai iştirakçılıq, həmçinin cəmiyyətə yenidən inteqrasiyası məqsədilə cəzadan vaxtından əvvəl şərti azad etmə institutu geniş tətbiq olunur.**




Eyni zamanda, beynəlxalq qurumlar və yerli qeyri-hökumət təşkilatları ilə səmərəli əməkdaşlıq aparılır, penitensiar müəssisələrə başçəkmələr edilir, məhkumların hüquqlarının qorunmasının və saxlanma şəraitinin monitorinqi həyata keçirilir, onlara hüquqi yardım göstərilir.

2000-ci ildən Azərbaycan Hökuməti və Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) arasında imzalanmış Sazişə əsasən Komitə nümayəndələri mütəmadi olaraq azadlıqdan məhrumetmə yerlərinə, o cümlədən penitensiar müəssisələrə maneəsiz baş çəkir, məhkumlarla təkbətək görüşlər keçirir, bu sahədə işin təkmilləşdirilməsinə töhfələr verirlər.

Həmin Sazişin məhkumlar və təqsirləndirilən şəxslərin hüquqlarının təminatına, işgəncələrə və pis rəftarın digər hallarının qarşısının alınmasına xidmət edəcəyi nəzərə alınaraq dövlət başçısı siyasi iradəsini nümayiş etdirərək Sazişin müddətinin uzadılması ilə bağlı xüsusi Sərəncam imzalayıb.

Bununla əlaqədar fevralın 5-də Ədliyyə Nazirliyində Azərbaycan Hökuməti və BQXK arasında müvafiq sənədin imzalanması mərasimi keçirilib.

Azərbaycan Hökuməti adından Sazişin müddətinin uzadılmasına dair Protokolu ədliyyə naziri Fikrət Məmmədov və BQXK-nın Azərbaycandakı Nümayəndəliyinin rəhbəri xanım Elena Aymone Sessera imzalayıblar.

Mərasimdə Azərbaycan və BQXK arasında əlaqələrin inkişafından məmnunluq ifadə olunub, tədbirin Komitənin təsis olunmasının 155 illiyinə təsadüf etdiyi qeyd olunaraq Sazişin qüvvəsinin uzadılmasının qarşılıqlı fəaliyyətə əlavə təkan verdiyi vurğulanıb.

Nazir dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası üzrə görülən tədbirlərdən bəhs edib. Bildirib ki, insanların azadlıq hüququnun qorunması, azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinin genişləndirilməsi məqsədilə cəza-icra qanunvericiliyi xeyli humanistləşdirilib, probasiya nəzarəti təsbit olunub, cəzaların icrası zamanı elektron qolbaqların tətbiqi üzrə tədbirlər görülüb.

Həmçinin Cinayət Məcəlləsinə edilmiş mühüm dəyişikliklərlə bir çox cinayətlərin dekriminallaşdırılması yüzlərlə məhkumun cəzalardan azad olunmasına və ya yüngülləşdirilməsinə səbəb olub.

Nazir ölkə rəhbərinin siyasi iradəsinə əsasən Azərbaycanda işgəncələrə qarşı qəti dözümsüzlük nümayiş etdirildiyini, 10 fevral tarixli Sərəncamın həm də cəzaçəkmə yerlərində pis rəftarın növü olan sıxlığın qarşısının alınmasına xidmət etdiyini vurğulayaraq, bu sahədə yerli və beynəlxalq təşkilatlar tərəfindən aparılan monitorinqlərin əhəmiyyətini qeyd edib.

Xanım E.Sessera son dövrlər penitensiar sistemdəki islahatları, cəza siyasətinin humanistləşdirilməsi, azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqi üzrə görülən tədbirləri təqdir edib, BQXK-nın ədliyyə sahəsində əməkdaşlığının səmərəliliyini xüsusi vurğulayıb, Komitə üzvlərinə penitensiar müəssisələrə baş çəkmək üçün hər cür şərait yaradılmasından məmnunluğunu söyləyib. Qonaq faydalı və məhsuldar əməkdaşlığa görə Azərbaycan Hökumətinə minnətdarlığını ifadə edib.

Görüşdə həmçinin BQXK ilə uzun illər məhkumlara yüksək ixtisaslı tibbi yardımın göstərilməsi sahəsində uğurlu əməkdaşlıqdan məmnunluq bildirilib. Qeyd olunub ki, məhkumlar arasında vərəmə qarşı mübarizə üzrə birgə fəaliyyət çox müsbət nəticələr verib, cəzaçəkmə müəssisələrində vərəmə yoluxma hallarının sayında ilbəil kəskin azalma müşahidə olunub, vərəmdən ölüm 105 dəfə azalıb. Azərbaycanın bu sahədə nailiyyətlərinə maraq artaraq son illər 17 dövlətdən 200-dən çox nümayəndə ölkəmizə səfərlər edib və qabaqcıl təcrübəmizlə tanış olublar.

Tədbirdə iştirak edən vətəndaş cəmiyyətinin nümayəndələri, hüquq-müdafiə təşkilatlarının rəhbərləri ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirləri yaxından izlədiklərini, penitensiar sistemdə ictimai nəzarət mexanizmlərinin səmərəli tətbiqini vurğulayıb, imzalanan sənədin qarşılıqlı fəaliyyətə töhfə verəcəyinə əminliklərini söyləyiblər.

Tədbirdə əməkdaşlığın perspektivləri barədə faydalı fikir mübadiləsi aparılıb.

# Dövlət gənclər siyasəti ədliyyə orqanlarında uğurla həyata keçirilir





**Ümummilli lider Heydər Əliyevin Azərbaycan gəncliyinə bəxş etdiyi 2 fevral - Gənclər Günü ədliyyə orqanlarında geniş qeyd olunub.**

Bu münasibətlə nazirliyin aparatında və struktur qurumlarında silsilə tədbirlər təşkil edilib, o cümlədən gənc əməkdaşlarla və könüllülərlə yığıncaqlar keçirilib, muzeylərlə tanış olunub, Gənclər Gününə həsr olunmuş foto-slaydlar nümayiş etdirilib.

Tədbirlərdə təməli Ulu Öndər tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etməsindən, dövlətçiliyə sadiq, sağlam düşüncəli, müasir Azərbaycan gəncliyinin formalaşmasından və onların ictimai həyatın bütün sahələrində fəal iştirakından bəhs olunub.

Bildirilib ki, dövlət siyasətinə uyğun olaraq ədliyyə orqanlarında gənclər geniş təmsil olunur, onlara xüsusi qayğı ilə yanaşılır, işlə təminatı daim diqqətdə saxlanılaraq son illər 2.500-ə yaxın gənc şəffaf seçimlər əsasında ədliyyə orqanlarına qulluğa qəbul olunub, onlarla hazırlıqlı mütəxəssis vəzifədə irəli çəkilib, nazirliyin aparatına təyinatlar alıblar. Hazırda növbəti açıq müsabiqədən uğur qazanmış 95 namizəd peşə fəaliyyətinə buraxılışla əlaqədar Ədliyyə Akademiyasında icbari təlim keçirlər.

Bu gün ədliyyə sistemində çalışan işçilərin təxminən yarısını gənclər təşkil edir və onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərirlər. Dövlət başçısının təşəbbüsü ilə yaradılmış könüllülər institutunun təşviqinə xüsusi diqqət yetirilərək, son bir ildə 250-dək gənc ədliyyə orqanlarında və məhkəmələrdə könüllü fəaliyyətə cəlb olunub.

Ölkə başçısının penitensiar xidmətin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tapşırığına uyğun olaraq xidmətin kadr korpusunun möhkəmləndirilməsi üzrə tədbirlər görülür, bu ərəfədə 40-dək gənc icbari təlimdən müvəffəqiyyətlə keçərək penitensiar xidmətə təyinat alıb, onlara ilk xüsusi rütbələr verilib, daha 75 nəfər isə hazırda Ədliyyə Akademiyasında icbari təlim keçirlər.

Əlamətdar gün münasibətilə ədliyyə naziri Fikrət Məmmədov təyinat alan yeni əməkdaşlarla görüş keçirib.

Dövlətimizin gənclərin hərtərəfli inkişafına yüksək qayğısından bəhs edən nazir ölkə başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamı, habelə penitensiar xidmətdə qulluq keçmənin xüsusiyyətləri barədə məlumat verib, gənclərin işlərində məsuliyyətli olmasını, qanunçuluq, insan hüquqları, humanizm prinsiplərinə, nizam-intizama, etik davranış qaydalarına dönmədən əməl olunmasını, korrupsiya və digər neqativ halların yolverilməzliyini vurğulayıb, gənclərə xidməti vəzifələrini layiqincə yerinə yetirmələri barədə tövsiyə və tapşırıqlarını verib, uğurlu fəaliyyət arzulayıb.

Gənclər hərtərəfli dövlət qayğısı ilə əhatə olunmalarını qeyd edərək ölkəmizin tərəqqisinin və əmin-amanlığının təmin olunması, hüquqi dövlətin inkişafı naminə ölkə başçısının ətrafında sıx birləşərək yorulmaz fəaliyyətində layiqli yardımçı olacaqlarını vurğulayıb, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və uca tutacaqlarına söz veriblər.

# Milli Məclisdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə dinlənilib

**Fevralın 13-də Milli Məclisin plenar iclasında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib.**

Ədliyyə nazirinin müavini Vilayət Zahirov illik məruzəni təqdim edib.

Bildirilib ki, 2017-ci ildə inzibati nəzarət qaydasında baxılması üçün Ədliyyə Nazirliyinə 62 min 618 bələdiyyə aktı daxil olub. Onlardan 60 min 444 (97 faiz) akt qanunvericiliyə uyğun hesab edilib. Qanunvericiliyin tələblərinə uyğun olmayan 1978 aktın isə dəyişdirilməsi və ya ləğv edilməsi üçün onları qəbul etmiş bələdiyyələrə müraciət olunub. Nazirliyin təkliflərinin əsasında onlardan 740-ı ləğv edilib, 714-ü dəyişdirilib, digərləri isə baxılmaqdadır. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində isə 2170 bələdiyyə aktı ekspertizadan keçirilib, onlardan bir akt qanunsuz olduğu üçün ləğv edilib. Bələdiyyə aktlarının hüquqi ekspertizası nəticəsində 1883 hektar torpaq sahəsinin icarəyə, 576 hektar torpaq sahəsinin istifadəyə, 175 hektar torpaq sahəsinin qanunsuz olaraq ayrı-ayrı şəxslərin mülkiyyətinə verilməsi müəyyən edilib və həmin qərarlar verilmiş təkliflər əsasında müvafiq





bələdiyyələr tərəfindən ləğv olunub. Bütövlükdə 2636 hektar torpaq sahəsinin qanunsuz verilməsinin qarşısı alınıb.

Diqqətə çatdırılıb ki, protokollar, eləcə də müraciətlər əsasında araşdırma zamanı ölkə üzrə bələdiyyələrə müxtəlif məsələləri əhatə edən 4378 tövsiyə göndərilib. Hesabat ilində Ədliyyə Nazirliyinə, o cümlədən nazirliyin rəhbərliyinin səyyar qəbullarından və "qaynar xətlər"dən bələdiyyələrin fəaliyyəti ilə bağlı daxil olmuş müraciətlərin sayında 2016-cı illə müqayisədə ciddi artım müşahidə edilməyib. 2017-ci ildə 2252 müraciət daxil olub ki, onlardan 1888-nə baxılaraq əsaslandırılmış cavablar verilib, 41 müraciət üzrə inzibati nəzarət icraatı qaydasında araşdırma aparılıb. Daxil olmuş 51 müraciətdə qaldırılan məsələ öz müsbət həllini taparaq təmin edilib.

Nazir müavini diqqətə çatdırıb ki, yerli özünüidarəetmənin səmərəliliyinin artırılması, bələdiyyələrin fəaliyyətində qanunçuluğun gücləndirilməsi sahəsində tədbirlər davam etdirilir (Çıxışın tam mətni jurnalımızın bu sayında oxucuların diqqətinə təqdim olunur).

Deputatlar illik məruzə haqqında fikir və təkliflərini səsləndiriblər. Sonra müzakirə olunan məsələ səsə qoyularaq qəbul edilib.

# Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik məruzə (2017-ci il üzrə)

## *Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Vilayət Zahirovun Milli Məclisdə çıxışı*

**Hörmətli cənab sədr!**

**Hörmətli deputatlar!**

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq 2017-ci il üzrə illik məruzə diqqətinizə təqdim olunur.

Qeyd etmək istəyirəm ki, keçən il illik məruzə dinlənilərkən Milli Məclisin plenar iclasında, həmçinin Regional Məsələlər Komitəsində irəli sürülmüş təkliflər, tövsiyələr diqqətlə öyrənilmiş və nəzərə alınmışdır. Bir neçə gün əvvəl Regional Məsələlər Komitəsində bu il təqdim olunan illik məruzənin geniş, konstruktiv müzakirəsi keçirilmiş, deputatlar, iclas iştirakçıları tərəfindən bir çox dəyərli fikirlər səslənmişdir. Bildirmək istəyirəm ki, bu səslənən fikirlər diqqətlə təhlil olunacaq, bələdiyyələrin işinin təşkilində, inzibati nəzarətin həyata keçirilməsində nəzərə alınacaqdır.

**Hörmətli deputatlar!**

Yola saldığımız 2017-ci il ölkəmizin tarixində



geniş, hərtərəfli, sürətli islahatlar ili kimi yadda qalacaqdır. Ümummilli lider Heydər Əliyevin dövlət inkişafı kursunu uğurla həyata keçirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə 2017-ci ildə ölkəmizin sabit və təhlükəsiz inkişafı təmin edilmiş, ardıcıl və məqsədyönlü islahatlar aparılmaqla sosial-iqtisadi tərəqqiyə nail olunmuş, iqtisadiyyatımızın bütün istiqamətlərində, xüsusilə qeyri-neft sektorunda artım müşahidə edilmiş, ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsi, turizmin inkişafı, əhalinin məşğulluğunun yaxşılaşdırılması üzrə mühüm tədbirlər həyata keçirilmişdir.

Dünyada qlobal maliyyə və iqtisadi böhranın hökm sürdüyü şəraitdə Azərbaycan iqtisadi rəqabət qabiliyyətliliyinə görə Davos Dünya İqtisadi Forumunun hesabatında 140 ölkə arasında 35-ci yerə yüksəlmiş və MDB məkanında liderliyini qoruyub saxlamışdır.

Ölkəmizin təşəbbüskarı olduğu irimiqyaslı neft və qaz layihələrinin uğurla həyata keçirilməsi, "Əsrin kontraktı"nın müddətinin uzadılması ilə bağlı yeni sazişin imzalanması, həmçinin Avropa ilə Asiyanı birləşdirən dünya əhəmiyyətli Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi regionda sülhə və sabitliyə, iqtisadi inkişafa böyük töhfə olmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, bu yol Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilməklə onun uğurlu fəaliyyəti ölkəmizin geosiyasi əhəmiyyətini daha da artıracaqdır.

Multikultural və tolerant dəyərlərə sadiq ölkə kimi tanınan Azərbaycanda 2017-ci il "İslam Həmrəyliyi İli" çərçivəsində keçirilmiş dünyamiqyaslı mühüm ictimai-mədəni tədbirlər, mötəbər beynəlxalq forumlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi və təşkilatçılığı ilə ölkəmizin uğurla ev sahibliyi etdiyi "IV İslam Həmrəyliyi Oyunları" dövlətimizin qüdrətini bir daha dünyaya nümayiş etdirmişdir.

Yola saldığımız ildə "Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyasına uyğun olaraq demokratik quruluşun əsaslarından biri olan yerli özünüidarəetmənin inkişafı, bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması üzrə də mühüm tədbirlər görülmüş, bir sıra yeni normativ hüquqi aktlar qəbul edilmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında" Qanun qəbul edilmiş, "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Bələdiyyə qulluğu haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" və "Bələdiyyələrin statusu haqqında" qanunlara əhəmiyyətli dəyişikliklər edilmişdir.

Ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi"nin



Tədbirlər Planında bələdiyyələrin kəndin sosial-iqtisadi inkişafı ilə bağlı öhdəliklərinin artırılması barədə tapşırığın icrası üçün Ədliyyə Nazirliyində aidiyyəti dövlət qurumları nümayəndələrinin iştirakı ilə işçi qrupu yaradılmış, 2017-ci il üçün tədbirlər planı hazırlanaraq həyata keçirilmişdir. Kənddə iş yerlərinin sayının çoxalmasına, kənd qadınları və gənclərinin kəndin sosial həyatında fəal iştirakına yönəlmiş bu işlər 2018-ci ildə də davam etdiriləcəkdir.

Yerli özünüidarə sahəsində həyata keçirilən ardıcıl dövlət siyasətinin nəticəsi olaraq yerli əhəmiyyətli məsələlərin həllində bələdiyyələrin iştirakı güclənmiş, onların əhali ilə əlaqələri xeyli yaxşılaşmış, bir çox sosial layihələrin uğurla yerinə yetirilməsi bələdiyyələrə olan inamı artırmışdır.

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin yaxşılaşdırılması və səmərəliliyinin artırılması, onlara metodiki köməkliyin gücləndirilməsi, hüquqi maarifləndirmənin genişləndirilməsi məsələləri Ədliyyə Nazirliyi üçün prioritet olmaqla daim diqqət mərkəzində saxlanılmış və Nazirliyin iş planlarına bu barədə xüsusi tapşırıqlar daxil edilmişdir. Həmçinin, bu sahədə mühüm rol oynayan nazirliyin regional ədliyyə qurumlarının statusu yüksəldilmiş, bələdiyyə fəaliyyəti ilə bağlı səlahiyyətləri genişləndirilmişdir.

2017-ci ildə inzibati nəzarət qaydasında baxılması üçün 64.788 bələdiyyə aktı daxil olmuşdur. Onların hər biri diqqətlə öyrənilərək qanunvericiliyə uyğunluğu inzibati nəzarət qaydasında yoxlanılmışdır. Qanunvericiliyin tələblərinə uyğun olmayan 1.979 aktın dəyişdirilməsi və ya ləğv edilməsi üçün onları qəbul etmiş bələdiyyələrə müraciət olunmuşdur. Onlardan 740-ı ləğv edilmiş, 714-ü dəyişdirilmiş, digərləri isə baxılmaqdadır.

Bələdiyyə aktlarının ləğvi və ya dəyişdirilməsi ilə bağlı nazirlik tərəfindən cəmi 3 halda, yəni əvvəlki ilə nisbətən 9 dəfə az məhkəmələrə müraciət olunmuşdur. Bu azalma, bələdiyyələrin ötən il qanunçuluğa daha ciddi riayət etmələri nəticəsində olmuşdur.

Bələdiyyə torpaqlarının idarə edilməsi, o cümlədən torpaqdan istifadə ilə bağlı bələdiyyələrlə aparılmış davamlı maarifçilik tədbirləri də öz bəhrəsini verməkdədir. Nəticədə 2016-cı illə müqayisədə torpaq qanunvericiliyinin pozulması halları əhəmiyyətli dərəcədə - 3 dəfədən çox azalmışdır.

Bütövlükdə 2.636 ha torpaq sahəsinin qanunsuz verilməsinin qarşısı alınmışdır.

Ekspertiza üçün mütləq təqdim olunan bələdiyyə aktlarının inzibati nəzarət orqanına vaxtında təqdim edilməməsinə görə İnzibati Xətalar Məcəlləsində cərimə məbləğinin artırılması və müvafiq maarifləndirmə işi 2017-ci ildə bələdiyyələrin vəzifəli şəxsləri tərəfindən inzibati xətalara yol verilməsi hallarının da azalmasına səbəb olmuşdur. Belə ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi-

nin 549.2-ci maddəsinə əsasən bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana mütləq təqdim olunan bələdiyyə aktlarının vaxtında təqdim edilməməsinə görə 98 (2016-cı ildə 156) inzibati xəta haqqında protokol tərtib edilərək müvafiq məhkəmələrə göndərilmişdir. Həmin protokollar əsasında 78 bələdiyyə sədri məhkəmələr tərəfindən inzibati məsuliyyətə cəlb edilmişdir.

Protokollar, eləcə də müraciətlər əsasında araşdırma zamanı ölkə üzrə bələdiyyələrə müxtəlif məsələləri əhatə edən 4.378 tövsiyə göndərilmişdir (bələdiyyə torpaqlarının idarə olunması, bələdiyyə üzvlərinin seçicilər qarşısında hesabat verməsi, qanunvericiliyin izahı, yerli vergilərin yığılması və digər məsələlər barədə). Bu tövsiyələrdə qanunvericiliyin tələbləri izah edilmiş, yol verilmiş nöqsanların, qanun pozuntularının aradan qaldırılması və qarşısının alınmasının zəruriliyi göstərilmişdir.

2017-ci ildə Ədliyyə Nazirliyinə bələdiyyələrlə bağlı 2.252 müraciət daxil olmuşdur ki, onlardan 1.888-nə baxılaraq əsaslandırılmış cavablar verilmiş, 41 müraciət üzrə inzibati nəzarət icraatı qaydasında araşdırma aparılmış, 51 müraciətdə qaldırılan məsələ öz müsbət həllini taparaq təmin edilmişdir.

Bələdiyyələrin fəaliyyəti ilə bağlı vətəndaşların qəbulu işi təkmilləşdirilmiş, bölgə sakinləri üçün rahat və əlverişli şərait yaradılması məqsədi ilə virtual qəbul təcrübəsi genişləndirilmiş, nəticədə vətəndaşların müraciət etmə imkanları xeyli asanlaşmışdır.

Eyni zamanda daxil olan vətəndaş müraciətlərinə diqqət daha da artırılmış, müraciətlərdə göstərilən və şikayət üçün səbəb olan hallar ətraflı araşdırılmışdır. Müraciətlərə əsasən başlanılan inzibati nəzarət icraatları ilə 24 bələdiyyənin fəaliyyətində müxtəlif cinayətlərin, o cümlədən mənimsəmə, vəzifə səlahiyyətlərindən sui-istifadə və s. qanunsuz əməllərin əlamətləri aşkar olunmuşdur. Bununla əlaqədar toplanmış materiallar hüquqi qiymət verilməsi üçün Ədliyyə Nazirliyi tərəfindən aidiyyəti hüquq mühafizə orqanlarına göndərilmiş və müvafiq tədbirlər görülmüşdür. İlin sonuna qədər 15 fakt üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılmış, digər materiallar isə baxılmaqdadır.

Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətində qanunçuluğun möhkəmləndirilməsi, qanun pozuntularına yol vermiş şəxslərin məsuliyyətə cəlb olunması yönündə tədbirlər davam etdirilir və bu istiqamətdə aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq gücləndirilir.

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi zamanı aşkar olunmuş xarakterik nöqsanlar, o cümlədən torpaq sahələrinin ayrılması ilə bağlı yol verilən qanun pozuntuları, bu halları doğuran səbəb və şərait, onların aradan qaldırılması üçün görülmüş tədbirlər üzrə ümumiləşdirmə və təhlillər aparılmışdır.

Bələdiyyə aktlarının təhlili göstərir ki, bir sıra bələdiyyələrdə bələdiyyə iclaslarının vaxtında çağırılması təmin edilmir, iclasların keçirilməsi üçün qanunla müəyyən edilmiş qaydalara əməl olunmur. Kollegiallıq prinsipinin pozulması, daimi komissiyaların işinin düzgün təşkil edilməməsi və bir sıra hallarda məsələlərin daimi komissiyalarda müzakirə olunmaması qanunsuz qərarların qəbul edilməsinə səbəb olur. Bir sıra bələdiyyələrdə hüquq komissiyalarının olmaması, mövcud komissiyaların işinin düzgün qurulmaması və ya hüquqi xidmətlərdən istifadə edilməməsi də bələdiyyə aktlarında nöqsanlara və qanunsuzluqlara yol açır.

Torpaqların idarə olunması məsələləri ilə bağlı qəbul olunmuş bir çox bələdiyyə aktlarında "Torpaq Məcəlləsi"nin, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Torpaq bazarı haqqında" qanunların və digər normativ hüquqi aktların tələblərinin pozulmasına yol verilmişdir.

Torpaqların zəbt olunması hallarının qarşısı alınmamış, zəbt olunmuş torpaqların boşaldılması üçün səmərəli tədbirlər görülməmiş, hətta bir sıra hallarda torpaqların münbit qatının dağıdılmasına yol verilmişdir.

Bələdiyyələrin əsas və dayanıqlı gəlir mənbəyi olan yerli vergi və ödənişlərin yığılmasında irəliləyiş olsa da, bu sahədə problemlər hələ də qalmaqdadır. Sosial layihələrin həyata keçirilməsində bələdiyyələrin fəallığının artırılması bu problemin həllindən çox asılıdır. Bununla yanaşı, vergi ödəyicilərinin ödənişdən yayınmalarının qarşısının alınmasını müəyyən edən hüquqi mexanizmlərin də yaradılması məqsədəuyğundur.

Bələdiyyə üzvləri və qulluqçularının, bir sıra hallarda isə vətəndaşların qanunvericiliyin tələblərini bilməməsi qanun pozuntularına yol açır, bəzən də əsassız şikayətlərin verilməsinə səbəb olur. Həmin şikayətlər daha çox vətəndaşlar tərəfindən zəbt edilmiş torpaqların azad olunmasına dair bələdiyyələrin qanuni tələblərinin yerinə yetirilməməsi, özbaşına tutulmuş torpaqların sənədləşdirilməməsi ilə bağlıdır.

Bələdiyyələrin fəaliyyətində qanun pozuntularının qarşısının alınması, qanunçuluğun gücləndirilməsi məqsədi ilə ardıcıl olaraq profilaktik və maarifçilik tədbirləri həyata keçirilir. Bir qayda olaraq maarifçilik tədbirlərinin mövzuları bələdiyyələrin təklifləri nəzərə alınmaqla müəyyən edilmiş və bu zaman məsələlərin aktuallığına, qanunvericilikdə olan yeniliklərə xüsusi diqqət yetirilmişdir.

Belə ki, 2017-ci ildə bələdiyyələr üçün aktual olan İnsan hüquqlarının qorunmasında bələdiyyələrin rolu, Bələdiyyələrdə şəffaflığın artırılması və antikorrupsiya tədbirləri, Bələdiyyə aktlarının qəbulu və icrası, Nağdsız hesablaşma və onun rolu, Bələdiyyə qulluğu, bələdiyyə qulluğuna qəbulun xüsusiyyətləri, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununda yeniliklər, Bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun təmin edilməsi, Yerli vergi və ödənişlərin yığılmasında bələdiyyələrin hüquq və vəzifələri, Bələdiyyələrdə və bələdiyyə müəssisələrində kargüzarlığın təşkili mövzuları üzrə seminarlar keçirilmişdir.

İl ərzində 184 təlim, konfrans və seminarlar keçirilmiş, bu maarifçilik tədbirlərinə 8.185 bələdiyyə üzvü və qulluqçusu cəlb edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi də muxtar respublika bələdiyyələrinin maarifləndirilməsində yaxından iştirak edərək 15 seminar təşkil etmiş və həmin seminarlarda 750-dən çox bələdiyyə üzvü və qulluqçuları iştirak etmişlər.

Hesabat ilində, həmçinin bələdiyyə üzvləri və qulluqçuları üçün Ədliyyə Akademiyasında və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 21 kurs keçirilmişdir. Bu kurslarda 714 nəfər iştirak edib, onlara insan hüquq və azadlıqlarının təminatı sistemində yerli özünüidarəetmənin rolu, bələdiyyə üzvləri və qulluqçularının etik davranış qaydaları, bələdiyyə torpaqlarının idarə olunması, vergi xidmətinin təşkili və digər aktual mövzular üzrə mühazirələr oxunmuşdur.

7 dekabr 2017-ci ildə Qəbələ şəhərində "Azərbaycanda yerli özünüidarəetmənin inkişafı: mövcud vəziyyət və perspektivlər", 18 dekabr 2017-ci ildə Bakı şəhərində "Bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin edilməsi: mövcud vəziyyət və qarşıda duran vəzifələr" mövzusunda keçirilmiş konfranslarda yerli özünüidarə məsələləri geniş müzakirə edilmiş, bələdiyyələrin fəaliyyətində yol verilən qanun pozuntuları, nöqsanlar, bələdiyyələrin məsuliyyəti məsələləri müzakirə edilmiş və müxtəlif təkliflər dinlənilmişdir.

Beləliklə, 2017-ci ildə ədliyyə orqanları tərəfindən 220 maarifçilik tədbiri keçirilmiş və bu tədbirlərə 9.649 bələdiyyə üzvü və qulluqçusu cəlb olunmuşdur.

Bununla yanaşı, bələdiyyələrin fəaliyyətində qanunçuluğun gücləndirilməsi və bələdiyyə nümayəndələrinin hüquqi biliklərinin artırılması məqsədi ilə aktual mövzular üzrə Sahibkarlıq fəaliyyəti ilə bağlı normativ hüquqi aktlar toplusu, "Yerli turizmin təşkilində bələdiyyələrin iştirakı" kitabı, Bələdiyyə qulluğuna qəbulda şəffaflıq, Bələdiyyə qulluqçularının etik davranış qaydaları, Yaşıllıqların mühafizəsi sahəsində bələdiyyələrin vəzifələri, Bələdiyyə aktlarında vərəsəlik hüququna əməl olunması, Yaşayış məntəqəsinin torpaqlarından istifadənin hüquqi əsasları, Torpaq sahələrinin özbaşına tutulmasının qarşısının alınması, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji Yol Xəritəsi"ndə bələdiyyələrin iştirakı, Bələdiyyə qərarlarının məzmunu və sairə üzrə 14 metodik vəsait və tövsiyələr hazırlanmışdır.

Göstərilənlərlə yanaşı, qanunvericiliyə edilən əlavə və dəyişikliklər barədə, bələdiyyələrin məlumatlandırılması məqsədi ilə "Yerli özünüidarə orqanlarının normativ aktlarının bülleteni"nin 4 nömrəsi dərc olunmuşdur.

Maarifləndirmə tədbirlərində digər dövlət orqanlarının, yerli və xarici qeyri-hökumət təşkilatlarının imkanlarından da səmərəli istifadə olunur. Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin və Ədliyyə Nazirliyi Bələdiyyələrlə iş mərkə-

zinin birgə hazırladığı "Yerli turizmin təşkilində bələdiyyələrin iştirakı" kitabı mövzunun aktuallığına görə dəyərli metodik vəsait olmaqla yanaşı, bu qəbildən olan ilk belə kitabdır. Vəsait Azərbaycan Turizm və Menecment Universitetinin təklifləri nəzərə alınmaqla təkmilləşdirilmiş, Universitetin rəyi əsasında çap edilmişdir.

Bələdiyyələrin, habelə əhalinin yerli özünüidarə məsələləri ilə bağlı maarifləndirilməsi məqsədi ilə kütləvi informasiya vasitələrinin imkanlarından istifadə olunaraq mətbuatda məqalələr yazılmış və televiziyada çıxışlar, verilişlər təşkil olunmuşdur. Bu tədbirlərdə Milli Məclisin deputatları, Ədliyyə Nazirliyinin əməkdaşları və bələdiyyələrin milli assosiasiyalarının nümayəndələri fəal iştirak etmişlər. Yerli özünüidarəyə həsr olunmuş televiziya verilişlərində bələdiyyələrin fəaliyyəti geniş işıqlandırılmış, onların qarşılaşdığı problemlər müzakirə olunmuş, əldə olunan uğurlar barədə geniş məlumat verilmişdir. Bütövlükdə, il ərzində kütləvi informasiya vasitələrində 157 çıxış təşkil edilmişdir.

Yerli özünüidarəetmə orqanları ilə iş sahəsində bələdiyyələrin milli assosiasiyaları fəal iştirak etmiş, onların rolu daha da genişlənmişdir. Bələdiyyələrin maarifləndirilməsində, onlara metodiki kömək göstərilməsində, vergi və ödənişlərin yığılması işinin təşkilində assosiasiyaların gördüyü işlər çox önəmlidir. Milli assosiasiyaların təşkilatçılığı, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin dəstəyi ilə bələdiyyələrin maliyyə potensialının gücləndirilməsi, yerli (bələdiyyə) vergi və ödənişlərin yığılması işinin səmərəli təşkili məqsədi ilə Bələdiyyələrin Avtomatlaşdırılmış Məlumat Sistemi (BAMS) proqramının istifadəsinə dair zona seminarları keçirilmişdir.

Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyəsinə uyğun olaraq, hər il olduğu kimi, milli assosiasiyaların təşəbbüsü ilə 30 oktyabr - 05 noyabr tarixlərində bələdiyyələrdə növbəti "Yerli demokratiya həftəsi" keçirilmişdir. Həmin tədbirlər öz mütəşəkkilliyi və məzmunu ilə seçilmiş, minlərlə insanın iştirakı təmin edilmiş, bələdiyyələrin işinə əhalinin marağını artırmış, "vətəndaş-bələdiyyə" "bələdiyyə-vətəndaş" əlaqələrinin möhkəmləndirilməsinə təkan vermişdir.

Beynəlxalq əməkdaşlığa önəm verilərək Budapeşt şəhərində Avropa Şurası və Avropa İttifaqı tərəfindən Şərq Tərəfdaşlığı ölkələrində həyata keçirilən "Proqramlar üzrə Əməkdaşlıq Çərçivəsi"ndə tematik proqramın icrası üzrə iclasda, Vyanada isə "Yerli özünüidarəetmənin institusional əsaslarının möhkəmləndirilməsi" mövzusunda keçirilmiş tədbirdə ölkəmiz təmsil olunmuşdur. O cümlədən Latviya və Litva Respublikalarının bələdiyyələri və onların İttifaqları ilə səmərəli əməkdaşlıq davam etdirilmiş, qarşılıqlı səfərlər olmuşdur. Türkiyənin Çukuroba Bələdiyyələr Birliyi və İzmit bələdiyyəsi rəhbərliyinin ölkəmizə səfərləri zamanı Çukuroba Bələdiyyələr Birliyi ilə Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyası arasında əməkdaşlıq protokolu imzalanmışdır.

Milli assosiasiyaların və bələdiyyələrin nümayəndələri Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin bir sıra tədbirlərinə və başqa beynəlxalq tədbirlərə qatılaraq ölkəmizi təmsil etmişlər.

**Hörmətli deputatlar!**

Təhlillər göstərir ki, bələdiyyələrin fəaliyyətində aşkar olunan bir çox nöqsanlar daha çox təkbaşına qərarların qəbul olunmasından, kollegiallıq prinsipinin pozulmasından irəli gəlir. "Bələdiyyələrin statusu haqqında" Qanunda bələdiyyələrdə daimi komissiyaların yaradılması nəzərdə tutulmuşdur. Lakin həmin norma imperativ xarakterli olmadığına görə, təcrübədə onların yaradılması formal xarakter daşıyır, bir çox hallarda bu komissiyalar fəaliyyət göstərmirlər. Bələdiyyələrin işində qanunçuluğun və kollegial idarəçiliyin gücləndirilməsi, habelə şəffaflığın artırılması məqsədilə həmin komissiyaların daimi fəaliyyət göstərməsi üçün "Bələdiyyələrin statusu haqqında" Qanuna, "Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında" Əsasnaməyə aidiyyəti dəyişikliklərin edilməsi məsələsinə baxılması məqsədəmüvafiq olardı.

Çıxışımın sonunda bildirmək istəyirəm ki, yerli özünüidarəetmənin səmərəliliyinin artırılması, bələdiyyələrin fəaliyyətində qanunçuluğun gücləndirilməsi sahəsində tədbirlər davam etdirilir.

*Diqqətinizə görə təşəkkür edirəm.*

# Mərkəzi Seçki Komissiyasında dairə seçki komissiyalarının sədrləri üçün seminar-müşavirə keçirilib

**Fevralın 15-də Mərkəzi Seçki Komissiyasında (MSK) dairə seçki komissiyalarının sədrləri üçün seminar-müşavirə keçirilib.**



Seminar-müşavirəni MSK-nın sədri Məzahir Pənahov açaraq dövlətimizin başçısı İlham Əliyevin prezident seçkilərinin aprelin 11-nə təyin olunması ilə bağlı Sərəncamına uyğun olaraq Mərkəzi Seçki Komissiyasının seçkilərin hazırlanıb keçirilməsinə məsul orqan kimi fəaliyyətə başladığını bildirib, MSK və aşağı seçki komissiyalarının vətəndaşların səsvermə hüququnu təmin etmək, seçki subyektlərinin fəaliyyətini qanunun tələbinə uyğun idarə etmək, tədbirləri qanunauyğun surətdə keçirmək üçün müxtəlif dövlət qurumları ilə əməkdaşlıq etdiyini söyləyib.

Qeyd edib ki, Azərbaycanda mövcud olan sabitlik şəffaf və demokratik seçkilərin keçirilməsi üçün münbit şərait yaradır. Bütün seçki komissiyalarının fəaliyyətinin Seçki Məcəlləsinin tələbinə uyğun təmin edilməsi üçün lazımi şərait mövcuddur.

Prezidentin ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev "Azərbaycan Respublikası Prezidentinin seçkilərinin hazırlanması və keçirilməsi prosesində yerli icra orqanlarının vəzifələri və onların seçki komissiyaları ilə qarşılıqlı fəaliyyəti" mövzusunda məruzə ilə çıxış edib.

Bildirib ki, Azərbaycanın seçki təcrübəsi, əldə etdiyi nailiyyətlər nəinki cəmiyyətimizdə, eyni zamanda, hər dəfə ölkəmizdə seçkiləri izləyən beynəlxalq müşahidəçilər tərəfindən də yüksək qiymətləndirilir. Dövlətimizin başçısının seçkilərdə şəffaflığın təmini ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qarşısında çox ciddi vəzifələr qoyduğunu deyən Prezidentin köməkçisi ölkəmizdə hökm sürən sabitliyin, təhlükəsiz mühitin seçkilərin demokratik prinsiplər əsasında keçirilməsini şərtləndirən amillər olduğunu vurğulayıb, yerlərdə dairə seçki komissiyalarının fəaliyyəti üçün lazımi şəraitin yaradılması ilə bağlı qanunvericiliklə icra hakimiyyəti orqanlarının üzərinə düşən vəzifələri diqqətə çatdırıb, səsvermə prosesində qanunvericiliyə ciddi əməl olunmasının, seçkilərin azad, sərbəst, şəffaf, demokratik prinsiplər əsasında keçirilməsinin, dürüst seçici siyahılarının hazırlanmasının vacibliyini qeyd edib.



Tədbirdə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev "Seçki hüququnun konstitusion əsasları. Azərbaycan Respublikası Prezidentinin seçkilərində seçki hüququnun realizə mexanizmləri", insan hüquqları üzrə müvəkkil Elmira Süleymanova "Seçki hüququ insan və vətəndaş hüquqlarından biri kimi"

mövzularında çıxışlar ediblər.

Ədliyyə nazirinin müavini Azər Cəfərov "Seçki prosesində ədliyyə orqanları və məhkəmələrin rolu" mövzusunda məruzə ilə çıxış edib (Çıxışın tam mətni jurnalımızın bu sayında oxucuların diqqətinə təqdim olunur).

Sonra Baş prokurorun birinci müavini Rüstəm Usubovun "Seçki hüquqlarının qorunmasında prokurorluq orqanlarının rolu və vəzifələri", daxili işlər nazirinin müavini Oruc Zalovun "Azərbaycan Respublikası Prezidentinin seçkilərində Daxili İşlər Nazirliyi orqanlarının rolu və fəaliyyət istiqamətləri", eləcə də Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri Rövzət Qasımovun "Səsvermə prosesi başa çatdıqdan sonra DSK və MnSK-ların üzərinə düşən əsas vəzifələr", İnformasiya Mərkəzinin müdiri Fərid Orucovun "Dövlət avtomatlaşdırılmış informasiya sisteminin yeni funksional imkanları və onlardan istifadə qaydaları", ümumi şöbəsinin müdiri Elşən Əsgərovun "Dairə seçki komissiyaları və məntəqə seçki komissiyalarında kargüzarlığın təşkili" mövzularında çıxışları dinlənilib.

Seminar-müşavirənin davamı fevralın 19-21-də regionlarda dairə seçki komissiyalarının katibləri, üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün keçirilib.

# Seçki prosesində ədliyyə orqanları və məhkəmələrin rolu

## *MSK-da dairə seçki komissiyalarının sədrləri üçün keçirilmiş seminar-müşavirədə Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Azər Cəfərovun çıxışı*

**Hörmətli müşavirə iştirakçıları!**



Ərəfəsində olduğumuz növbəti prezident seçkiləri əvvəlkilərdən fərqlidir. Konstitusiyamıza son dəyişikliklərə görə bu dəfə prezidentliyə namizəd üçün yaş senzi yoxdur. Seçiləcək prezidentin səlahiyyət müddəti artıq 5 il yox 7 il nəzərdə tutulub. Prezidentin yeni səlahiyyətləri təsbit olunmuşdur. Məsələn, parlamenti buraxmaq, vitse-prezidentləri təyin etmək və s.

Seçkilərin seçki komissiyaları tərəfindən keçirilməsinə baxmayaraq, qanunvericilik (Seçki Məcəlləsi) bu prosesin qanunauyğun təşkil edilməsi və keçirilməsində müxtəlif dövlət orqanlarının, o cümlədən ədliyyə orqanlarının üzərinə vəzifələr qoyur.

Ədliyyə orqanlarının seçkilərin təşkilində və keçirilməsində fəaliyyəti əsasən seçki prosesinin normativ tənzimlənməsi, sənədlərin təsdiqi, seçicilərin siyahılarının tərtib edilməsi, müxtəlif ekspertizaların aparılması, seçki komissiyaları ilə birgə penitensiar müəssisələrdə seçkilərin təşkil olunması formasında həyata keçirilir.

Gördüyümüz kimi seçki prosesi üzrə ədliyyə orqanlarının fəaliyyət istiqamətləri xüsusiyyətlərinə görə iki növə ayrıla bilər: bunlardan biri bu prosesin ədliyyə sisteminin böyük bir qurumunda təşkili və bilavasitə keçirilməsindən, digərləri isə bütövlükdə ölkə üzrə həyata keçirilən həmin prosesə bu və ya digər formada dəstək verməkdən ibarətdir.

***

Vətəndaşların aktiv seçki hüququnun təmin edilməsi sahəsində ədliyyə orqanlarının üzərinə düşən vəzifələrdən ən mühümü penitensiar müəssisələrdə, yəni istintaq təcridxanalarında və cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərin seçki hüququnun həyata keçirilməsinin təmin edilməsidir.

Artıq 23 ildir ki, Azərbaycan Respublikasında seçkilərdə həbs edilmiş şəxslərin və məhkumların iştirakını təmin etmək məqsədi ilə Mərkəzi Seçki Komissiyası, dairə seşki komissiyaları ilə səmərəli əməkdaşlıq edilir.

Yeri gəlmişkən qeyd edək ki, adıçəkilən kontingentin bu sahədə hüquqlarının müdafiəsi baxımından ölkəmizin qanunvericiliyi xeyli proqressivdir. Bir sıra dövlətlərdə, məsələn, Almaniya, Böyük Britaniya, Macarıstan, Bolqarıstan, Lüksenburq,

Ermənistanda, hətta ABŞ-ın bir sıra ştatlarında bu şəxslərin seçki hüquqları ümumiyyətlə yoxdur.

Digərlərində, məsələn, İsveçrə, İtalya, Rusiya, Türkiyə, Qazaxıstan, Hindistan və s. dövlətlərdə bu hüquqlar müəyyən məhdudiyyətlərlə həyata keçirilir. Bunların bəzilərində bütün kateqoriya məhkumlara, bəzilərində isə qəsdən törədilmiş cinayətlərə görə məhkum olunanlara, digərlərində bir sıra ağır cinayətlərə görə məhkum olunanlara, o birisilərdə müəyyən müddətdən artıq azadlıqdan məhrum edilənlərə belə hüquqlar verilməmişdir.

Məlumat üçün qeyd edim ki, penitensiar müəssisələrdə keçırilən seçkilərdə həbs edilmiş şəxslər və məhkumlarla yanaşı, seçki günü xidmətdə olan əməkdaşlar, habelə müvafiq istintaq təcridxanasının, cəzaçəkmə müəssisəsinin mühafizəsinə cəlb edilmiş müddətli hərbi qulluqçular da aidiyyəti seçki məntəqələrində səsvermədə iştirak edə bilərlər.

Penitensiar müəssisələrdə seçkilər Seçki Məcəlləsinə, habelə Mərkəzi Seçki Komissiyasının "Seçkilərdə (referendumda) Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərdə, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda yerləşən neft və qaz hasilatı platformalarında, xəstəxanalarda, sanatoriyalarda, istirahət evlərində, azadlıqdan məhrumetmə yerlərində və istintaq təcridxanalarında seçkilərin təşkili haqqında" Təlimatına uyğun həyata keçirilir.

Həbs edilmiş və cəza çəkən şəxslərin seçkilərdə iştirakının təmin edilməsi üçün keçirilmiş tədbirlər nəticəsində penitensiar müəssisələrdə artıq seçki mədəniyyəti formalaşmış və hazırda müvafiq işlək icra mexanizmiləri mövcuddur. Tədbirlər əsasən aşağıdakılardan ibarət olur:

- xüsusi komissiya yaradılır, Mərkəzi və dairə seçki komissiyaları tərəfindən penitensiar müəssisələrində seçki məntəqələri təşkil olunur. Müəssisələr tərəfindən seçicilərin siyahısı tərtib olunub seçki komissiyalarına təqdim edilir, Mərkəzi Seçki Komissiyasının iştirakı ilə müşavirələr, seminarlar keçirilır, müəssisələr Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış dərgi və sənədlər, o cümlədən Seçki Məcəlləsi, müxtəlif təlimat, qayda və izahlar, habelə əyani təbliğat vasitələri ilə təmin olunurlar, seçkilərlə bağlı televiziya, radioda yayımlanan çıxışların həbs edilmiş və cəzaçəkən şəxslər tərəfindən izlənilməsi üçün şərait yaradılır;
- demək olar ki, hər bir müəssisədə seçki məntəqələri yaradılır, bəzi müəssisələrdə seçicilərin sayı nəzərə alınaraq hətta iki məntəqə təşkil olunur.
- seçki prosesini müşahidə etmək səlahiyyəti verilmiş şəxslərin, kütləvi informasiya vasitələri nümayəndələrinin, həmçinin müxtəlif missiyaların müəssisələrə girişinin müvafiq daxilolma qaydalarına düzgün əməl etməklə aparılmasına yönəlmiş tədbirlər görülür, bu işin əngəlsiz həyata keçirilməsi üçün aidiyyəti əməkdaşlarla əvvəlcədən maarifləndirmə işi aparılır;
- seçki günü məntəqə seçki komissiyalarının üzvlərinə mandatlarına uyğun olaraq penitensiar müəssisələrin ərazisində rahat, sərbəst fəaliyyət üçün imkan yaradılır.

Məlumat üçün bildiririk ki, 2008 və 2013-cü illərdə keçirilən prezident seçkiləri penitensiar müəssisələrdə uğurla baş tutmuşdur. Bu zaman səs vermək hüququ olan şəxslərin 99 %-dən çoxu seçkilərdə iştirak etmişdir.

***

Seçki Məcəlləsinə əsasən (maddələr 59 və 67) müvafiq seçki komissiyaları hər bir namizədin imza vərəqələrindəki imzaların düzgünlüyünü yaratdıqları ekspertlərdən ibarət işçi qrupu vasitəsilə yoxlaya bilərlər.

Bu işçi qruplarında Ədliyyə Nazirliyinin mütəxəssisləri yaxından təmsil olunurlar və məlumat üçün bidirirəm ki, onlar beynəlxalq akkreditasiya almış metodikalardan istifadə edirlər, mütəxəssislərin özləri isə beynəlxalq sertifikata malik ekspertlərdirlər. Təsəvvür olsun deyə bildirirəm ki, 2013-cü il prezident seçkilərində onlar 14 namizədin təqdim etdiyi imza vərəqələrindəki təqribən 600 minə yaxın imzanın ekspertizasını aparmışlar. Ekspertiza rəyləri də nəzərə alınmaqla namizədlərdən yalnız 10-u qeydə alınmışdır.

Seçki qanunvericiliyi imza vərəqələrində olan bütün imzaların yoxlanılmasını ehtiva edir. Lakin qanunvericilik bir sıra istisnalar da nəzərdə tutur. Belə ki, imzaların yoxlanılması o vaxt dayandırılır ki, düzgün imzaların sayı namizədlərin qeydə alınmasına əsas verir və ya qalan imzaların sayı namizədlərin qeydə alınması üçün kifayət etmir.

Seçkilərlə bağlı ekspertiza sahəsində fəaliyyət yalnız deyilənlərlə bitmir. Qanunvericiliyə görə (SM-nin 88-ci maddəsi, CM, İXM, MM) qeydə alınmış namizədlərin seçkiqabağı platformalarda, yığıncaqlarda, kütləvi informasiya vasitələrində yayılan təşviqat materiallarında və çıxışlarda hakimiyyətin zorla ələ keçirilməsinə, Konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və dövlətin ərazi bütövlüyünün pozulmasına çağırışlar, vətəndaşların şərəf və ləyaqətini təhqir edən mülahizələr olmamalıdır. Təbii ki, bu qadağa Konstitusiya ilə təsbit edilmiş fikir və söz azadlığı çərçivəsində tətbiq edilməlidir (47-ci maddə). Eyni zamanda seçkiqabağı təşviqat

aparılarkən kütləvi informasiya vasitələrindən sosial, irqi, milli, dini nifrət və düşmənçilik yaradan formada sui-istifadəyə görə cinayət məsuliyyəti, əqli mülkiyyət haqqında qanunvericiliyi pozan təşviqata görə isə mülki məsuliyyət nəzərdə tutulur.

Qeyd etmək istərdim ki, bu hallarda da, bir qayda olaraq, məhkəmə-fonoskopik, linqvistik və digər növ ekspertizaların aparılmasına zərurət yarana bilər.

***

Seçki Məcəlləsinə (46.4-cü maddə) əsasən Ədliyyə Nazirliyi daimi seçici siyahılarının formalaşmasında da iştirak edir, təbii ki, digər qurumlarla yanaşı. Bu məsələdə ölkə əhalisi barədə dolğun məlumatlar bazasının mövcudluğu çox vacibdir. Belə məlumatlar məcmusunu özündə cəmləyən və Ədliyyə Nazirliyi tərəfindən aparılan Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri xüsusi əhəmiyyət kəsb edir.

Dövlət Reyestrində Ədliyyə, Daxili İşlər, Səhiyyə nazirliklərindən və Dövlət Miqrasiya xidmətindən daxil olan 20-dən çox göstərici üzrə formalaşan və mütəmadi dəqiqləşdirilən informasiya bazası yaradılmışdır. Hazirda orada 7 milyon 20 min 18 yaşına çatmış şəxs, başqa sözlə, seçki hüququna malik olan potensial seçicilər barəsində məlumatlar toplanmış və bu gün Mərkəzi Seçki Komissiyasının "İAMAS"dan (İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sistemi) aldığı məlumatların tamlığında Reyestrin rolu olduqca böyükdür.

***

Sənədlərin təsdiqi sahəsində də əlaqəli fəaliyyətimiz mövcuddur. Belə ki, qanunvericiliyə görə (Seçki Məcəlləsinin 54.5.1, 54.5.2 və 54.6.3-cü maddələri, habelə MSK-nın "Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi haqqında Təlimat") MSK-ya təqdim olunmalı bəzi sənədlər notarial qaydada təsdiq edilməlidir. Söhbət namizədliyin irəli sürülməsinin tanınması üçün siyasi partiyanın qeydə alınması barədə şəhadətnamə və siyasi partiyanın nizamnaməsindən, habelə siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin (həmçinin maliyyə məsələləri üzrə) vəkalətnamələrindən gedir. Vəkalətnamələrin nümunələri təlimata əlavə edilmişdir.

***

Bir neçə kəlmə normativ tənzimləmə sahəsi barədə.

Bildiyiniz kimi, Mərkəzi Seçki Komissiyasının qərarları, təlimatları və izahları normativ xarakterli aktlar kimi Ədliyyə Nazirliyinin apardığı Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməlidir. Bu aktlar Komissiya tərəfindən həmin Reyestrə daxil edilmək məqsədi ilə göndərilir, hüquqi ekspertizadan keçirilir və imtinaya səbəb olan hallar aşkar edilmədikdə, Dövlət Reyestrinə daxil edilirlər. Sənədlər qüvvəyə minmənin daha gec müddəti nəzərdə tutulmadıqda Reyestrin elektron variantında dərc edildiyi gündən qüvvəyə minirlər.

Bildirirəm ki, Hüquqi Aktların Dövlət Reyestrinin fəaliyyət göstərdiyi 6 il yarıma yaxın müddət ərzində Mərkəzi Seçki Komissiyasının 88 hüquqi aktı hüquqi ekspertizadan keçirilərək Dövlət Reyestrinə daxil edilmiş və müvafiq internet saytında dərc olunmuşdur.

***

Bildiyiniz kimi, Seçki Məcəlləsinə əsasən (112.1, 112.2 və 112.3-cü maddələr) seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) seçicilər, namizədlər, siyasi partiyalar, müşahidəçilər, vəkil edilmiş və s. şəxslər tərəfindən yuxarı seçki komissiyasına, sonra MSK-ya, daha sonra isə apellyasiya instansiyası məhkəməsinə şikayət edilə bilər. Apellyasiya məhkəməsinin qərarından isə Ali Məhkəməyə şikayət nəzərdə tutulub.

Təcrübə göstərir ki, bu cür şikayətlər daha çox parlament seçkiləri ilə bağlı olur: 2015-ci ildə keçirilmiş belə seçkilərdə Bakı Apellyasiya Məhkəməsinə 78, Sumqayıt Apellyasiya Məhkəməsinə 16 iş daxil olmuşdur. Digər seçkilərdə məhkəmələrə verilən şikayətlərin sayı xeyli az olur. Məsələn, 2008-ci ildə keçirilmiş prezident seçkiləri ilə bağlı məhkəmələrdə cəmi 5, 2013-cü ildə keçirilmiş eyni adlı seçkidə isə 24 işə baxılmışdır. Son prezident seçkiləri ilə bağlı şikayətlərin 10-nu bir namizəd və onun səlahiyyətli nümayəndələri vermişlər.

Ümumiyyətlə isə hər iki seçki zamanı verilmiş iddialarda tələblər əsasən namizədin qeydə alınması, namizədin qeydiyyatının ləğv edilməsi, ayrılmış vəsaitin seçki fondu hesabına köçürülməməsi, ödənişli efir vaxtı və yerlərinin ayrılmaması, "EXİT-POL" keçirilməsi üçün qeydə alınmama, bəzi məntəqələrdə seçkilərin nəticələrinin ləğv edilməsi və s. bu kimi hallarla bağlı olmuşdur.

Onu da diqqətə çatdırıram ki, prezident seçkiləri ilə bağlı şikayətlər Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasına aid deyil. Bu yönümlü işlərdən həmin Məhkəmə "İnsan Hüquq və Azadlıqlarının Müdafiəsi Haqqında" Avropa Konvensiyasının 1 nömrəli Protokoluna (3-cü maddə) əsasən yalnız parlament seçkiləri ilə bağlı şikayətlərə baxır.

*Diqqətinizə görə təşəkkür edirəm.*

# Penitensiar xidmətdə MSK üzvlərinin iştirakı ilə müşavirə



**Ədliyyə Nazirliyi Penitensiar xidmətində Mərkəzi Seçki Komissiyası üzvlərinin, Xidmətin Baş idarəsinin və cəzaçəkmə müəssisələrinin məsul əməkdaşlarının və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə 2018-ci il aprelin 11-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinə həsr olunmuş müşavirə keçirilib.**

Ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənov tədbiri açaraq qeyd edib ki, möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan düşünülmüş, məqsədyönlü siyasət sayəsində 2017-ci ildə də Azərbaycan uğurla inkişaf edib, bütün sahələrdə əldə edilmiş müsbət nəticələr, uğurlu daxili və xarici siyasət ölkəmizin potensialını daha da artırıb, Azərbaycan regionda ən qüdrətli dövlətə çevrilib, dünyada baş verən siyasi-iqtisadi böhranlara baxmayaraq, Azərbaycan xalqı 2017-ci ildə sabitlik, əmin-amanlıq və təhlükəsizlik şəraitində yaşayıb, əhalinin maddi rifahı yüksəlib, mühüm əhəmiyyətli iqtisadi və sosial layihələr uğurla həyata keçirilib.

Bildirilib ki, ölkə başçısının Sərəncamına əsasən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar 2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilib: "Azərbaycan Respublikası Prezidenti seçkiləri 11 aprel 2018-ci il tarixə təyin olunması bilavasitə Azərbaycanın milli maraqlarına və inkişafına xidmət edir. Seçkilərin daha erkən vaxta təyin edilməsi "Cümhuriyyət ili" və digər mühüm dövlət tədbirlərinin həyata keçirilməsi və yeni dövr üçün resursların daha mütəşəkkil şəkildə səfərbər edilməsi məqsədilə zəruridir. Biz hamımız əminik ki, Cümhuriyyətimizin ikinci yüz illiyinə yeni seçilən prezidentin liderliyi, yeni proqramlar və hədəflərlə daxil olacağıq".

Penitensiar xidmətin rəisi qarşıda duran əsas vəzifənin penitensiar müəssisələrdə seçkiləri ən yüksək meyarlara uyğun həyata keçirməkdən ibarət olduğunu qeyd edib. Bu mühüm dövlət tədbiri ərəfəsində penitensiar müəssisələrdə əməliyyat şəraitinin sabit saxlanılması üçün kompleks təhlükəsizlik tədbirləri həyata keçirildiyi və planlı şəkildə profilaktika işi aparıldığı xüsusilə vurğulanıb.

Maraq kəsb edən kontingent üzərində nəzarətin gücləndirilməsi və məhkumlar arasında izahedici işin aparılması, məhkum və həbs edilmiş şəxslərin, eləcə də müddətli hərbi xidmət keçən əsgər və çavuşların səs vermə prosesinin yüksək səviyyədə təmin olunması məqsədilə imzalanmış Tədbirlər planı tabe qurumlara göndərilib və icrası nəzarətə götürülüb.

Müşavirədə prezident seçkilərinin penitensiar müəssisələrdə və tabe qurumlarda seçki qanunvericiliyinə uyğun təmin edilməsi, seçkilərə hazırlıq, əməli köməklik göstərilməsi və nəzarətin həyata keçirilməsi məqsədilə Penitensiar xidmətin Baş idarəsində rəhbər vəzifəli məsul əməkdaşlardan ibarət Komissiyanın yaradıldığı qeyd olunub.

Tədbirdə çıxış edən Mərkəzi Seçki Komissiyasının katibi Arifə Muxtarova və komissiyanın media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədli müşavirə iştirakçılarının çoxsaylı suallarını cavablandırıblar.

# Mütərəqqi məhkəmə islahatları uğurla davam etdirilir





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin yeni müasir binasının açılışı

**Fevralın 27-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. İclasda ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə ötən il görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib.**

Tədbirdə çıxış edən Fikrət Məmmədov ötən ilin ölkəmiz üçün uğurlu olduğunu, təməli dahi öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət inkişafı kursunun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə həyata keçirildiyini, dünyada baş verən siyasi və iqtisadi təlatümlərə, qlobal böhranlara baxmayaraq ölkəmizdə sabitlik və intensiv inkişafın təmin edildiyini vurğulayıb.

Qeyd olunub ki, 2017-ci ildə Məhkəmə-Hüquq Şurası tərəfindən ədalət mühakiməsinin səmərəliliyinin artırılması, bu sahədə yeni qanunvericilikdən irəli gələn məsələlər, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və məsuliyyət hissinin yüksəldilməsi, korrupsiya, süründürməçilik və digər neqativ halların aradan qaldırılması, hakimliyə namizədlərin seçimi ilə bağlı 30-dək məsələyə baxılıb, bu tədbirlər KİV-də geniş işıqlandırılıb.

Dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsi barədə 10.02.2017-ci il tarixli Sərəncamı bütün hüquq-mühafizə orqanları və məhkəmələr üçün "yol xəritəsi"nə çevrilib. Bu müstəsna əhəmiyyətə malik sənədin icrası üzrə tədbirlər Məhkəmə-Hüquq Şurasında müzakirə olunub, Cinayət Məcəlləsinə 300-ə yaxın dəyişikliklər edilib, həbs qətimkan tədbirinin seçilməsi qaydası təkmilləşdirilib, onun müddətinin uzadılmasına təsirli nəzarət mexanizmləri yaradılıb.

Bildirilib ki, görülmüş ardıcıl tədbirlər nəticəsində istintaq təcridxanalarına daxil olan həbs olunmuş şəxslərin sayı əvvəlki illə müqayisədə 25%-dək azalıb, müxtəlif əsaslarla həbsdən azad edilənlərin sayı isə 15% artıb. Həmçinin, həbs qətimkan tədbirinin seçilməsinə dair məhkəmələrə verilən təqdimatların sayı 26%, həbsdə saxlama müddətinin uzadılması barədə müraciətlərin sayı isə 1/3 qədər azalıb.

2017-ci ildə səlahiyyət müddəti başa çatmış 130-dan çox hakimin fəaliyyəti qiymətləndirilib, ciddi qanun pozuntularına yol verdikləri aşkar edilmiş 20 hakimin, o cümlədən 7 məhkəmə sədrinin hakimlik səlahiyyətlərinə xitam verilib, 6 məhkəmə sədri və apellyasiya məhkəmələrinin 8 hakimi aşağı işə keçirilib. Yuxarı instansiya məhkəmələrində mövcud olan vakansiyaların komplektləşdirilməsi diqqətdə saxlanılaraq 15 nəfər ali və apellyasiya məhkəmələrinə irəli çəkilib.

Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər çərçivəsində 12 hakim intizam məsuliyyətinə cəlb edilib, 1 nəfərin hakimlik səlahiyyətlərinə vaxtından əvvəl xitam verilib, 1 nəfər intizam qaydasında tutduğu vəzifədən azad olunub, digər tədbirlər görülüb.

İclasda ötən il hakimliyə namizədlərin seçimi prosesinin davam etdiyi, şəffaf prosedurlarla keçirilmiş imtahanlarda müvəffəqiyyət qazanmış 126

namizədin 2017-ci ilin yanvar ayından uzunmüddətli tədrisə cəlb edildiyi vurğulanıb. Kurs zamanı onların beynəlxalq təcrübəni öyrənmələrinə xüsusi önəm verilib, bütün hakimliyə namizədlər Türkiyədə, habelə Avropa İnsan Hüquqları Məhkəməsində nəzəri və praktiki təlimlər keçiblər.

Ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında müasir məhkəmə infrastrukturunun yaradılmasının əhəmiyyəti nəzərə alınaraq, bu sahədə ardıcıl işlər görülüb, Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində və dövlət büdcəsi hesabına İmişli və Qəbələ rayon məhkəmələri üçün inşa edilmiş yeni müasir məhkəmə binaları istifadəyə verilib, Sumqayıt Məhkəmə Kompleksinin, Bakı şəhəri Suraxanı və Binəqədi, habelə Masallı və Zaqatala rayon məhkəmələri üçün inzibati binaların inşası davam etdirilib.

Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi üçün inşa edilmiş yeni müasir binanın açılışında dövlət başçısı cənab İlham Əliyevin şəxsən iştirakı və yaradılan şəraitlə tanışlığı məhkəmə hakimiyyətinə böyük etimadın və yüksək qayğının təzahürü olub.

Ədalət mühakiməsinin səmərəliliyinin artırlması üzrə məqsədyönlü tədbirlər məhkəmə işlərinin keyfiyyətinə də təsir göstərib, 2017-ci ildə birinci instansiya məhkəmələrinin mülki işlər üzrə yekun qərarlarının 97,6%-i, hökmlərin isə 88,3 %-i dəyişdirilməyərək sabit qalıb.

Məhkəmə səhvlərinin aradan qaldırılmasında hakimlərin tədrisinin əhəmiyyəti nəzərə alınaraq 2017-ci ildə nüfuzlu beynəlxalq təşkilatlar, tanınmış ekspertlər və təcrübəli hakimlərinin iştirakı ilə 500-dən çox hakimi əhatə edən 30-dan artıq tədris tədbirləri təşkil olunub, insan haqları, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması, etik davranış qaydaları ilə bağlı mövzuların tədrisinə üstünlük verilib.

Eyni zamanda Ədliyyə Akademiyası müasir İKT ilə təchiz edilib və Avropa Məhkəməsinin hakimləri və təcrübəli ekspertlərin iştirakı ilə video-konfrans vasitəsilə distant təlimlərin keçirilməsinə başlanılıb.

Məhkəmə sistemində aparılan islahatlar mötəbər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilib. 2017-ci ildə Avropa Şurası tərəfindən keçirilən müsabiqədə Azərbaycan Məhkəmə-Hüquq Şurasının "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" adlı layihəsi "Ədliyyənin Kristal Tərəzisi" nüfuzlu mükafatına layiq görülüb.

Həmçinin, Avropa Şurasının müraciəti əsasında ötən ildə Azərbaycan nümayəndə heyəti tərəfindən Moldovaya səfər edilərək məhkəmə infrastrukturunun yaradılması sahəsində müsbət təcrübəmizlə bölüşülüb, Moskva Şəhər Məhkəməsi sədrinin rəhbərlik etdiyi geniş nümayəndə heyəti ölkəmizə səfər edərək məhkəmə sistemimizdəki yenilikləri, o cümlədən elektron məhkəmənin tətbiqi təcrübəsini öyrənib.

İclasda təşkilati məsələlərə də baxılıb, Ali Məhkəmənin sədri, Şura üzvü Ramiz Rzayevin səlahiyyət müddətinin bitməsi ilə əlaqədar dövlət başçısı tərəfindən yenidən həmin vəzifəyə təyinatının məhkəmə hakimiyyətinə yüksək etimadın təzahürü olduğu vurğulanıb, yeni Şura üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev təqdim olunub, Fikrət Məmmədov yenidən Şuranın sədri seçilib.

Eyni zamanda 2018-ci ildə səlahiyyət müddəti başa çatan 100-dək hakimin fəaliyyətinin prinsipial qiymətləndirilməsi məsələləri müzakirə edilib, dövlət başçısının vətəndaşlara qayğılı münasibət göstərilməsi, korrupsiyaya şərait yaradan halların yolverilməzliyi ilə bağlı tapşırıqları vurğulanıb. Hakimlər tərəfindən etik davranış qaydalarına dürüst əməl edilməsi, antikorrupsiya mədəniyyətinin yüksəldilməsi, hakim adına və nüfuzuna xələl gətirən halların qarşısının alınması üzrə qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

Şurada qanunvericiliyin tələblərinin pozulmasına və korrupsiyaya şərait yaradan hallara yol verilməsinə görə Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi Samir Mayılovun tutduğu vəzifədən azad olunaraq başqa işə keçirilməsi barədə qərar qəbul edilib, Binəqədi Rayon Məhkəməsinin hakimi Mirheydər Zeynalova töhmət verilib, Nəsimi Rayon Məhkəməsinin hakimi Elman İsayevə irad tutulub, habelə 1 hakim barədə intizam icraatı başlanılıb.

# Avropa Şurası ilə hüquqi sahədə səmərəli əməkdaşlıq davam edir




**Fevralın 14-də "Azərbaycanda ədliyyə islahatlarına dair təşəbbüslərə dəstək" adlı yeni layihənin təqdimat konfransında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan hüquqları siyasəti və inkişaf departamentinin rəhbəri Mixail Lobovun və Avropa Şurasının Azərbaycandakı Ofisinin yeni rəhbəri Zoltan Hernyesin ədliyyə nazirinin müavini Azər Cəfərov ilə görüşü keçirilib.**

Azərbaycan və Avropa Şurası arasında səmərəli əməkdaşlığı qeyd edən nazir müavini Z.Hernyesi təbrik edərək ona uğurlu fəaliyyət arzulayıb. Nazir müavini ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son illər məhkəmə-hüquq sistemində aparılan islahatlardan bəhs edib, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsini, yeni məhkəmələrin və məhkəmə təsisatlarının yaradılmasını, hakimlərin sayının artırılmasını, elektron məhkəmə informasiya sisteminin tətbiqi və infrastrukturun müasirləşdirilməsi üzrə görülən tədbirləri qeyd edib. Eyni zamanda, hakimlərin Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) tərəfindən örnək kimi dəyərləndirilən ən şəffaf seçiminə toxunaraq hazırda növbəti seçimin aparılması barədə məlumat verilib.

A.Cəfərov dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamının müstəsna əhəmiyyətinə toxunaraq bu mühüm sənədin icrası üzrə görülən qanunvericilik və institusional tədbirlərdən danışıb. Bildirib ki, Avropa Şurası ilə birgə həyata keçirilən, hakimlərin və digər hüquqşünasların insan hüquqları üzrə treninqini əhatə edən layihə öz müsbət nəticələrini verir və bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanlar var.

Avropa Şurasının ölkəmizlə müxtəlif sahələrdə uğurla əməkdaşlıq etdiyini söyləyən qonaqlar Ədliyyə Nazirliyinin vacib tərəfdaş olduğunu, Azərbaycanın məhkəmə-hüquq sahəsindəki nailiyyətlərinin Avropa Şurasının rəhbərliyi tərəfindən yüksək qiymətləndirildiyini, o cümlədən "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatına layiq görüldüyünü vurğulayıb, elektron məhkəmə sisteminin digər ölkələr üçün maraqlı təcrübə olduğunu qeyd edərək yaxşı praktikaların mübadiləsinin əhəmiyyətinə toxunublar.

Avropa Şurasının nümayəndələri, həmçinin əlaqələrin genişləndirilməsində, Ədliyyə Akademiyası ilə birgə insan hüquqlarının tədrisi, o cümlədən İnsan Hüquqları üzrə Avropa Konvensiyasının presedentlərinin öyrənilməsi və tətbiqi, Avropa Məhkəməsinə tədris səfərlərinin, həmçinin Məhkəmənin hakimlərinin və hüquqşünaslarının iştirakı ilə video-konfrans vasitəsilə distant təlimlərin təşkili sahəsində uğurlu layihənin bundan sonra da davam etdirilməsində maraqlı olduğunu qeyd edib, qanunvericiliyin, məhkəmə təcrübəsinin təhlilini və tədris tədbirlərini nəzərdə tutan yeni layihənin perspektivlərindən danışıblar.

Görüşdə həmçinin əməkdaşlığın prioritetləri müzakirə olunub, o cümlədən probasiya və mediasiya institutlarının tətbiqi, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, məhkəmə ekspertizası və əməkdaşlıq edilə bilən digər sahələrlə bağlı faydalı fikir mübadiləsi aparılıb.

# Birləşmiş Ərəb Əmirlikləri ölkəmizlə ədliyyə sahəsində əməkdaşlığın inkişafında maraqlıdır

**Fevralın 27-də Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərindəki (BƏƏ) səfiri Daşqın Şikarov bu ölkənin ədliyyə naziri Sultan Bin Səid əl Badi ilə görüşüb.**



Görüşdə əsasları ümummilli lider Heydər Əliyev və BƏƏ-nin birinci Prezidenti Şeyx Zahid əl Nəhyan tərəfindən qoyulmuş Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri münasibətlərinin bir çox sahələrdə sürətlə inkişaf etdiyi vurğulanıb. Bildirilib ki, son illərdə xalqlarımız arasında təmasların genişlənməsi, Azərbaycana səfər edən BƏƏ vətəndaşlarının sayının ildən-ilə artması əməkdaşlığa yeni dinamika verir.

Söhbət zamanı ölkələrimiz arasında ədliyyə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub, Azərbaycan ilə BƏƏ arasında hüquqi sahədə dövlətlərarası müqavilələrin və Ədliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında Sazişin imzalandığı vurğulanıb.

Səfir D.Şikarov Azərbaycanda gedən siyasi və iqtisadi proseslər, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı layihələr, 2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkiləri, Azərbaycanın müasir məhkəmə-hüquq sistemi barədə ədliyyə naziri Sultan Bin Səid əl Badiyə məlumat verib.

Nazir Sultan Bin Səid əl Badi iki ölkə arasında mövcud əlaqələrdən məmnunluğunu ifadə edib, bu münasibətlərin daha da inkişaf etdirilməsində ölkəsinin maraqlı olduğunu bildirib. O, ölkəsinin Azərbaycan ilə xüsusi münasibətlərdə olduğunu vurğulayaraq, BƏƏ-nin ədliyyə sistemi barədə məlumat verib. Nazir azərbaycanlı tərəf müqabilləri ilə ədliyyə sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə hazır olduğunu vurğulayıb.

**AzərTAc**

# Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti açıq müsabiqə elan edilib



**Ölkəmizdə uğurla həyata keçirilən dövlət siyasətinə uyğun olaraq ədliyyə orqanlarında gənclər geniş təmsil olunur, onlara xüsusi qayğı ilə yanaşılır, işlə təminatı daim diqqətdə saxlanılaraq son illər 2.500-ə yaxın gənc şəffaf seçimlər əsasında ədliyyə orqanlarına qulluğa qəbul olunublar.**

Bu gün ədliyyə sistemində çalışan işçilərin təxminən yarısını gənclər təşkil edir və onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərirlər.

Hazırda Müsabiqə Komissiyası tərəfindən Azərbaycan Respublikası Prezidentinin 13 dekabr 2007-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"yə müvafiq olaraq növbəti açıq müsabiqə elan edilib.

Müsabiqə üzrə vakant vəzifələr əsasən probasiya, icra və qeydiyyat sahələrində, habelə regional ədliyyə idarələrindədir.

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş tələblərə cavab verən ali hüquq təhsilli Azərbaycan Respublikası vətəndaşları müsabiqəyə dəvət olunur.

Müsabiqənin birinci mərhələsində - test imtahanında iştirak üçün müraciətlərin qəbulu Nazirliyin əhaliyə göstərdiyi "Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı müsabiqədə iştirak üçün namizədin qeydə alınması" adlı elektron xidmət vasitəsilə həyata keçirilir. Ərizələr poçt vasitəsilə də göndərilə bilər.

Müsabiqədə iştirak etmək arzusunda olan hüquqşünaslar 2018-ci ilin mart ayının 1-dən etibarən Nazirliyin internet səhifəsindən (www.exidmet.justice.gov.az) və ya "Elektron hökumət" portalından (www.e-gov.az) qeyd olunan elektron xidmət vasitəsilə ərizə formasını doldurmalı və



təsdiq etməlidirlər. Qeydiyyata alınmış bütün namizədlərin fərdi elektron kabinetləri yaranır və onlar müraciətlərinin qəbulu ilə bağlı məlumatlandırılır. Namizəd müsabiqənin gedişi və nəticələri barədə məlumatları kütləvi informasiya vasitələri ilə yanaşı, elektron kabinetindən də əldə edir.

Test imtahanından uğur qazanmış namizədlərin digər zəruri sənədlərinin toplanması və yoxlanılması bu mərhələdən sonra həyata keçiriləcək və qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən şəxslər ikinci mərhələyə - söhbətə buraxılacaqlar.

İmtahana hazırlıqla bağlı "Yaddaş kitabçası" Nazirliyin internet səhifəsində "Qulluğa qəbul" bölməsində və namizədlərin elektron kabinetlərində yerləşdiriləcək, habelə bu sənədlər yerli ədliyyə qurumlarına müraciət edənlərə təqdim olunacaqdır.

Bildirilir ki, builki müsabiqədə iştirak edən hüquqşünaslar üçün də test imtahanına və söhbət mərhələsinə mükəmməl hazırlaşmalarına və yüksək nəticələr əldə etmələrinə köməklik məqsədilə Nazirliyin Ədliyyə Akademiyasında ödənişsiz hazırlıq kursları təşkil ediləcəkdir.

Test imtahanının vaxtı və yeri, habelə hazırlıq kursunun keçirilməsi barədə əlavə məlumat veriləcəkdir.

Nazirliyin internet səhifəsindən, eləcə də (012) 538-01-62, 537-05-90 nömrəli telefonlar vasitəsilə bütün suallarla bağlı operativ informasiya almaq olar.

# Ədliyyə orqanlarına informasiya-kommunikasiya texnologiyaları üzrə mütəxəssislərin qulluğa qəbulu ilə bağlı açıq müsabiqə davam edir

**Ədliyyə Nazirliyində yaradılmış İnformasiya-kommunikasiya texnologiyaları idarəsində vakant vəzifələrin zəruri hazırlığa malik peşəkar mütəxəssislərlə komplektləşdirilməsi üzrə elan olunmuş açıq müsabiqədə iştirakla bağlı hazırda sənəd qəbulu davam edir.**

Müsabiqədə qanunvericiliyin tələblərinə cavab verən aşağıda göstərilən sahələrdə xüsusi biliklərə malik Azərbaycan Respublikası vətəndaşları iştirak etməyə dəvət olunur:

**1. Mühəndis-proqramçı**

**Proqramlaşdırma bilikləri:** C#, ASP.NET MVC, WebAPI, AngularJS (JAVA, Android, İOS, Ajax, HTML, CSS, JavaScript, JQuery, Ajax - üstünlük verilir);

**Məlumat bazası bilikləri:** MySQL, MsSQL, Oracle, PL/SQL (üstünlük verilir);

**Java veb texnologiyaları:** Servlet, JSP, JSF, Primeface (üstünlük verilir);

**Veb servislər:** SOAP, Restful, DevExpress (üstünlük verilir).

**2. Veb-dizayner**

HTML5, CSS3, Bootstrap Framework, JavaScript, JQuery, Prototype, Angular;

Photoshop, Corel DRAW (Adobe İllustrator, AfterEffects, Premiere - üstünlük verilir);

**3. Məlumat bazası üzrə analitik**

**Məlumat bazası bilikləri:** MySQL, MsSQL, Oracle;

**Əməliyyat sistemləri:** Linux, Windows Server 2008, 2012 R2; (üstünlük verilir)

Məlumat bazalarındakı məlumatların analiz edilməsi, hesabatların alınması, backup/restore bacarığı.

**4. Sistem inzibatçısı**

**Əməliyyat sistemləri:** Windows Server (2008, 2012, 2016), Linux (RHEL, CentOS, Scientific - üstünlük verilir);

**Virtualizasiya:** VMware 5.0, 6.0;

**Application server:** İİS 7.0, 7.5, 8.0, Tomcat 7, 8, Glassfish 3, 4; (üstünlük verilir)

Serverlərin sazlanması, əməliyyat sistemlərinin yüklənməsi, Domain, DNS və SSL sertifikatların quraşdırılması.

**5. İnformasiya sistemlərinin təhlükəsizlik analitiki**

Təhlükəsizliyin müəyyən edilməsi metodları və həllərinin idarə olunması;

Təhlükəsizliklə bağlı monitorinq və analizlərin həyata keçirilməsi, hesabatların hazırlanması;

Davam edən təhlükəsizliyin qiymətləndirilməsi, həllinin müəyyən edilməsi;

CİSSP və ya CEH sertifikatı olanlara üstünlük verilir.

Xatırladırıq ki, müsabiqədə iştirak etmək arzusunda olan şəxslər CV formalarını Ədliyyə Nazirliyinin Kadrlar və İnformasiya-kommunikasiya texnologiyaları idarələrinə təqdim edə bilərlər (ünvan: Bakı şəhəri, İnşaatçılar prospekti 1 və Azadlıq prospekti 72).

Aidiyyəti məsələlərə, o cümlədən tələb olunan sənədlərin siyahısına dair Nazirliyin internet səhifəsində (www.justice.gov.az) və (012) 404-42-51 telefonu vasitəsilə əlavə məlumat almaq olar.

---

# Ədliyyə Nazirliyinin Mətbuat xidmətinin məlumatı

**Ədliyyə Nazirliyinin İxtisas Komissiyası bildirir ki, Cəlilabad, Xızı, İmişli, Masallı, Quba, Samux, Saatlı, Şəmkir və Yardımlı rayonlarında vakant olan notarius vəzifələri üzrə ötən ilin noyabr ayında keçirilmiş test imtahanında uğur qazanmış 50 namizədlə qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə fərdi qaydada müsahibə aparılıb.**

İxtisas Komissiyası tərəfindən müsahibənin nəticələrinə əsasən ən yüksək bal toplamış 10 namizədin Ədliyyə Akademiyasında icbari təlimə cəlb olunmaları, o cümlədən notariat fəaliyyəti üzrə təcrübə keçmələri barədə qərar qəbul edilib.

Müsahibənin nəticələrinə görə uğur qazanmış namizədlərin siyahısı:

1. Bağırzadə Rüfət İbrahim oğlu
2. Məmmədov Səbuhi Teyyub oğlu
3. Nəsirov Seymur Qulamhüseyn oğlu
4. Sadıqov Vüsal Akif oğlu
5. Hüseynov Elvin Elbrus oğlu
6. Hacıyev Azər Sədrəddin oğlu
7. Məhərrəmov Elnur Mirbəşir oğlu
8. Xudiyev Pərvin Etibar oğlu
9. Nəsibov Sərdar Namiq oğlu
10. Orucov Nail Hilal oğlu

Siyahıda adları göstərilən namizədlər fevral ayının 19-da saat 09.00-da Ədliyyə Akademiyasında olmalıdırlar. Ünvan: Bakı şəhəri, Vidadi küçəsi, 158 (Bakı Ağır Cinayətlər Məhkəməsinin yanında), telefon 493-71-31.

Bildiririk ki, "Notariat fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə şəhadətnamə almaq üçün imtahanın və müsahibələrin keçirilməsi Qaydası"nın tələblərinə uyğun olaraq icbari təlimin yekunları üzrə qiymətləndirmədən müvəffəqiyyətlə keçənlərə şəhadətnamənin verilməsi məsələsinə baxılacaqdır.

Əlavə məlumatları nazirliyin Qeydiyyat və notariat baş idarəsindən (Bakı şəhəri, Azadlıq prospekti 72), habelə 404-42-28, 404-42-29 nömrəli əlaqə telefonları vasitəsilə əldə etmək mümkündür.

---

# Penitensiar xidmət yeni kadrlarla komplektləşdirilir



**Penitensiar xidmətin fəaliyyətin təkmilləşdirilməsinə, cəza siyasətinin humanistləşdirilməsinə və cəzaların icrası işinin müasir dövrün tələblərinə uyğun qurulmasına dair ölkə Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamı ilə həyata keçirilən islahatlar yeni mərhələyə yüksəlib, bir çox konkret vəzifələr, o cümlədən penitensiar xidmətin layiqli kadrlarla formalaşdırılması, əməkdaşların bilik, bacarıq və praktiki vərdişlərinin inkişaf etdirilməsi və fəaliyyətlərinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi, habelə onların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı konkret vəzifələr müəyyən edilib.**

Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovun imzaladığı əmrə əsasən Penitensiar

xidmətin kadr korpusunun komplektləşdirilməsi məqsədilə gənc namizədlər orta rəis heyətində qulluğa qəbul ediliblər.

Xidmətə qəbul üçün müəyyən edilmiş və keçirilmiş müsabiqələrdə uğur qazanmış 37 nəfər gənc namizədə xüsusi rütbələr verilib və orta rəis heyətinə xidmətə qulluğa başlayıblar.

Fevralın 10-da Ədliyyə Nazirliyi Penitensiar xidmətinin Baş idarəsində orta rəis heyətinə qulluğa qəbul edilmiş əməkdaşların andiçmə mərasimi keçirilib.

Gənc əməkdaşlarla keçirilmiş görüşdə ədliyyə nazirinin müavini, Penitensiar xidmətin rəisi Ceyhun Həsənovun gənclərə xidmətə qəbul olunmaları münasibəti ilə təbrikləri çatdırılıb, gələcəkdə çətin və şərəfli fəaliyyətlərində vətəndaş hüquq və azadlıqlarına hörmət, qanunçuluq, humanizm, qərəzsizlik prinsiplərinə dönmədən riayət etmək, dövlət idarəçiliyinin mühüm sahələrindən biri olan ədliyyə orqanlarında vicdanla, dövlətə və xalqa sədaqətlə xidmət etmək, ədliyyə işçisi adını daima uca tutmaq tövsiyə edilib.

Həmin gün yeni təyinat almış əməkdaşlar Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsini dərin ehtiramla yad ediblər. Həmçinin, Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsi anılıb, məzarları önünə çiçəklər qoyulub.

# Penitensiar müəssisələrdə yeni istehsal sahələri yaradılır

**Ölkə Prezidenti cənab İlham Əliyevin 2017-ci ilin fevralın 10-da imzaladığı penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı Sərəncamında azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində mövcud istehsal sahələrinin bərpa edillməsi və yeni sahələrin yaradılması imkanlarının araşdırılması, bu fəaliyyətdə sahibkarların iştirakının stimullaşdırılması üçün tədbirlərin görülməsi tapşırılıb.**



Bununla əlaqədar fevralın 21-də Ədliyyə Nazirliyi Penitensiar xidmətində müxtəlif təşkilatların, şirkətlərin rəhbərlərinin, iş adamlarının və sahibkarların iştirakı ilə tədbir keçirilib.

Tədbirdə həmçinin, cəzaçəkmə müəssisələrinin maliyyə, istehsalat və təsərrüfat işləri üzrə rəis müavinləri, təsərrüfat şöbələrinin rəisləri və Baş idarənin məsul əməkdaşları iştirak ediblər.

Cəzaçəkmə müəssisələrinin ərazisində yerləşən istehsalat sahələri, istehsal olunan müxtəlif çeşidli məhsullar, fəaliyyət göstərən onlayn-mağazada satışa çıxarılmış məhsul və suvenirlər barədə geniş məlumat verilib.

Qeyd olunub ki, cəza çəkənlərin ictimai-faydalı əməyə cəlb olunması onların törətdikləri cinayətlərlə vurulmuş ziyanın ödənilməsi, öz ailələrinə maddi yardım göstərilməsi ilə yanaşı, məhkumların islah olunması, habelə müxtəlif peşələrə yiyələnməsi, azad olunduqdan sonra cəmiyyətə daha tez adaptasiya olunması üçün zəmin yaradır.

Tədbirdə yeni istehsalat sahələrinin yaradılması ilə bağlı faydalı fikir mübadiləsi aparılıb.

# Hakimliyə namizədlərlə tədrisin nəticələri üzrə yazılı imtahan keçirilib



**Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ölkə Prezidentinin tapşırıqlarına əsasən görülən tədbirlər çərçivəsində hakimliyə namizədlərin beynəlxalq standartlar səviyyəsində, şəffaf üsullarla seçimi prosesi davam edir.**

Seçim zamanı 800-dən çox hakimliyə namizəddən 125 nəfəri test üsulu ilə, habelə yazılı və şifahi imtahanlardan müvəffəqiyyətlə keçərək, hakim vəzifəsinə hazırlanmaları üçün bir il müddətində davam edən tədris kursuna cəlb edilib, onların məhkəmələrdə, o cümlədən xarici ölkələrdə stajkeçməsi təşkil olunub.

Namizədlərin peşə hazırlığının yoxlanılması məqsədilə fevralın 3-də tədrisin nəticələri üzrə onlarla yazılı imtahan keçirilib. Texniki Universitetin İdman Sarayında təşkil olunmuş imtahanı nüfuzlu beynəlxalq təşkilatlar, yerli QHT və hüquq müdafiə təşkilatlarından olan 20-dək müşahidəçi və mətbuat nümayəndələri izləyiblər.

İmtahan başlamazdan əvvəl, yerindəcə, Hakimlərin Seçki Komitəsinin qapalı iclasında kazus xarakterli 8 sual hazırlanıb. Həmin suallar sırasından namizədlərin cinayət və mülki sahəyə dair təsadüfi yolla seçdiyi iki sual dərhal çoxaldılaraq cavablandırılması üçün onlara paylanıb.

4 saat davam edən imtahanda namizədlər verilmiş həmin kazusları düzgün həll etmək, qanunvericiliyin normaları dolğun təhlil olunmaqla müvafiq məhkəmə qərarlarını tərtib etmək bacarıqlarını nümayiş etdiriblər.

İmtahanın şəffaf prosedurlarla keçirilməsi, müasir informasiya texnologiyalarının imkanlarından səmərəli istifadə olunması, o cümlədən prosesin internet vasitəsilə "on-line" rejimində birbaşa yayımlanması müşahidəçilər tərəfindən yüksək dəyərləndirilib.

# Avropa Şurası ilə ədliyyə sahəsində yeni layihə təşviq olunur

**Fevralın 14-15-də Ədliyyə Nazirliyi Ədliyyə Akademiyasının və Avropa Şurasının birgə təşkilatçılığı ilə "Hilton" mehmanxanasında Avropa Şurasının "Azərbaycanda ədliyyə islahatlarına dair təşəbbüslərə dəstək" yeni layihəsinin təqdimat konfrası keçirilib.**

Konfransda Avropa Şurası İnsan hüquqları siyasəti və inkişaf departamentinin rəhbəri Mixail Lobov, qurumun Bakı ofisinin rəhbəri Zoltan Hernyes, ABŞ-ın Azərbaycandakı Səfirliyinin Siyasi şöbəsinin rəhbər müavini William C. Solley və Ədliyyə Akademiyasının rektor vəzifəsini icra edən Elçin Xələfov açılış nitqi ilə çıxış ediblər.

Layihənin məqsədi Azərbaycanda ədliyyə islahatlarına dəstək vermək və insan hüquqlarının müdafiəsini yaxşılaşdırmaqdır. Layihə çərçivəsində insan hüquqlarının müdafiəsinə yönəlmiş milli fəaliyyət planlarının hazırlanması və həyata keçirilməsində Azərbaycana yardım etmək, cinayət hüququnu beynəlxalq insan hüquqları normalarına uyğunlaşdırmaq, hüquqşünasların və milli qurumların potensialının artırılmasına dəstək vermək və təlim-tədris tədbirləri təşkil etmək nəzərdə tutulur.

Tədbirdə yeni layihənin təqdimatı ilə bağlı çıxışlar edilib, Avropa İnsan Hüquqları Konvensiyasının implementasiyası - yeniliklər və əsas problem-






lər, Avropa İnsan Hüquqları Konvensiyasının milli səviyyədə implementasiyası Avropanın əsas məsələsi kimi, Avropa Məhkəməsi effektiv müdafiə vasitəsi kimi: problemlər və həllər, AİHM qərarlarının Rusiya tərəfindən icra olunması kontekstində mülkiyyət hüquqları, hüquqşünasların daha səmərəli təlimi vasitəsilə Avropa insan hüquqları standartlarının milli səviyyədə tətbiqinin təmini, Azərbaycanda vəkillər üçün insan hüquqları təliminin problemləri və perspektivləri, AİHM qərarlarının icrasında və AİHK ilə bağlı ən yaxşı təcrübələrin təşviqində Ali Məhkəmənin rolu və s. məsələlər müzakirə olunub, hüquqşünaslar üçün insan hüquqlarının tədrisi ilə bağlı video film nümayiş etdirilib.

Eyni zamanda HELP Proqramının təqdimatı keçirilib.

Konfransın ikinci günü "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" layihəsi çərçivəsində "Avropa İnsan Hüquqları Konvensiyasının implementasiyası" mövzusuna həsr olunub.

Bu zaman Avropa İnsan Hüquqları Konvensiyası (AİHK) ədliyyə sahəsində islahatların əsas aləti kimi, Konvensiya çərçivəsində mülkiyyətin müdafiəsi, hakim etikası, Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) və dövlətdaxili məhkəmələr arasında məhkəmə dialoqu, AİHK və AİHM presedent hüququ milli qanunvericilikdə və praktikada çatışmazlıqların müəyyən edilməsinin vasitəsi kimi məsələlər iştirakçıların diqqətinə çatdırılıb.

# Ədliyyə Akademiyasında hakimlər üçün distant təlim keçirilib

**Ölkə Prezidenti cənab İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqları çərçivəsində hakimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirilir. Hakimlərin ən qabaqcıl metodikalarla davamlı tədrisi aparılır, bu zaman insan hüquqları, korrupsiya ilə mübarizə, məhkəmə etikası və digər aktual mövzuların, qanunvericilikdəki yeniliklərin, mütərəqqi Avropa təcrübəsinin, o cümlədən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsinə böyük önəm verilir.**

Həmçinin BMT-nin Beynəlxalq Miqrasiya Təşkilatının dəstəyi ilə Akademiyanın elektron tədris platforması yaradılaraq distant treninq formaları tətbiq olunmaqla video-konfrans vasitəsilə təlimlər təşkil olunur.

Hakimlərimizin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərini və təcrübəsini öyrənmələrinin əhəmiyyəti nəzərə alınaraq Avropa Məhkəməsi ilə səmərəli əməkdaşlıq çərçivəsində bu Məhkəmənin hakimlərinin və digər hüquqşünaslarının tədris tədbirlərinə daha geniş cəlb olunması barədə razılığa gəlinib.

Bununla əlaqədar Ədliyyə Akademiyasında Avropa Məhkəməsinin Azərbaycandan olan hakimi hüquq elmləri doktoru, professor Lətif Hüseynovun iştirakı ilə hakimlər üçün video-konfrans vasitəsilə distant təlim keçirilib.

Tədbirin açılışında çıxış edən Akademiyanın





rəhbəri Elçin Xələfov bu təlimin əhəmiyyətini vurğulayıb, onun dinləyici auditoriyasının genişləndirilməsinə, təlim materiallarının daha çevik çatdırılmasına, həm mühazirəçilər, həm də dinləyicilər üçün vaxta qənaət olunmasına xidmət etdiyini bildirib. Qeyd olunub ki, Akademiya tərəfindən Avropa Şurası ilə birgə həyata keçirilən layihə çərçivəsində 1.100-dək hakim və digər hüquqşünaslar İnsan Hüquqları üzrə Avropa Konvensiyasının müxtəlif maddələrinin şərhinə dair təlimlərə cəlb olunub.

Ali, Bakı Apellyasiya və birinci instansiya məhkəmələrindən 10 hakimin və Ədliyyə Akademiyası təlimçilərinin iştirak etdiyi təlimdə Avropa Məhkəməsinin hakimi L.Hüseynovun "Avropa İnsan Hüquqları Konvensiyası və subsidiarlıq prinsipi" mövzusunda video-konfrans vasitəsilə mühazirəsi dinlənilib, maraqlı diskussiyalar keçirilərək fikir mübadiləsi aparılıb, hakimləri maraqlandıran suallara aydınlıq gətirilib.

Tədbir iştirakçıları bu cür aktual mövzulara dair distant təlimlərin təşkilinin hakimlərin bilik və bacarıqlarının artırılmasında və vahid məhkəmə təcrübəsinin formalaşdırılmasında səmərəsini qeyd ediblər.

Dinləyicilərin böyük marağına səbəb olan belə təlimlərin bundan sonra da keçirilməsi nəzərdə tutulur.

# Hakimlərin və məhkəmə aparatı işçilərinin ixtisaslarının artırılması diqqət mərkəzindədir

**Ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə həyata keçirilən islahatlar çərçivəsində hakimlərin və məhkəmə aparatı işçilərinin peşəkarlığının artırılmasına, qabaqcıl Avropa təcrübəsinin, xüsusilə İnsan Hüquqları üzrə Avropa Konvensiyasının və Avropa Məhkəməsi presedentlərinin öyrənilməsinə xüsusi diqqət yetirilir, bu məqsədlə Ədliyyə Akademiyası tərəfindən, o cümlədən beynəlxalq təşkilatlarla birgə mütəmadi ixtisasartırma kursları və digər tədris tədbirləri təşkil olunur.**

Cari ilin fevralında Ədliyyə Akademiyası və Avropa Şurasının birgə təşkilatçılığı ilə "Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsi (Yaşamaq hüququ)" mövzusunda təlim keçirilib.

Apellyasiya və birinci instansiya məhkəmələrinin 25-ə yaxın hakiminin iştirak etdiyi təlimdə Avropa Konvensiyasının 2-ci maddəsinin əhatə dairəsi, maddi hüquqi aspektləri, yerli və eksterritorial tətbiqi, həyatın tibbi cəhətdən qorunması, dövlətin prosedur öhdəlikləri, güc tətbiqi və 2-ci maddənin 2-ci bəndindən istisnalar, dövlət nümayəndələri tərəfindən ölümlə nəticələnə bilən güc tətbiqi, beynəlxalq silahlı münaqişədə güc tətbiqi, həyata təhlükə yaradan vəziyyətlərdə həyatı qorumaq öhdəliyi kimi məsələlər diqqətə çatdırılıb və mövzu ilə bağlı kazuslar müzakirə edilib.



Təlimdə həmçinin Avropa Şurasının HELP Proqramının əyani formada təqdimatı keçirilib.

"Azərbaycanda ədliyyə islahatlarına dair təşəbbüslərə dəstək" layihəsi çərçivəsində isə Bakı Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələrinin aparatlarının işçiləri üçün "Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsi (Şəxsi həyata və ailə həyatına hör-

mət hüququ)" mövzusunda təlim təşkil edilib.

23 dinləyicinin qatıldığı təlimdə Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsi haqqında ümumi məlumat, Konvensiyanın 8-ci maddəsindəki anlayışlar, diskresion səlahiyyətlərin hüdudları, şəxsi həyata hörmət hüququ, 8-ci maddənin məqsədləri üçün ailə həyatını təşkil edən münasibətlər, ailə münasibətlərinin tanınması sahəsində dövlətin pozitiv öhdəlikləri, mənzil toxunulmazlığı hüququ, mənzil toxunulmazlığı hüququnun müdafiəsi sahəsində dövlətin pozitiv öhdəlikləri, yazışma sirrinə hörmət hüququ kimi məsələlər müzakirə olunub.



# Bələdiyyələrin hüquqi maarifləndirilməsi üçün ardıcıl tədbirlər görülür





**Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəliliyinin artırılmasına, onlara metodiki köməkliyin gücləndirilməsinə, bələdiyyə üzvlərinin və qulluqçularının hüquqi maarifləndirilməsinə daim xüsusi diqqət yetirilir, bu məqsədlə Ədliyyə Akademiyasının, regional ədliyyə idarələrinin imkanlarından istifadə olunmaqla mütəmadi təlimlər, seminar-müşavirələr təşkil edilir.**

Cari ilin fevralında Ədliyyə Akademiyasının və Gəncə, Sumqayıt, Şəki, Şirvan, İmişli və Bərdə regional ədliyyə idarələrinin təşkilatçılığı ilə həmin qurumların ərazi yurisdiksiyalarına daxil olan rayonların bələdiyyə nümayəndələrinin maarifləndirilməsi məqsədilə seminar-müşavirələr keçirilib.

Tədbirlərdə qeyd olunub ki, yaradıldığı gündən dövlətin yaxından dəstəyini hiss edən bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür, bu sahədə qanunvericilik möhkəmlənir, bələdiyyələr tərəfindən vətəndaşların mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində yaxından iştirak edilir, fəaliyyətlərində qanunçuluğun, şəffaflığın təmin olunmasına, bələdiyyə üzvü və qulluqçularının hüquqi maarifləndirilməsinə xüsusi önəm verilir.

Seminar-müşavirələrdə "İnsan hüquqlarının qorunmasında bələdiyyələrin rolu və məsuliyyəti, bələdiyyələrin fəaliyyətində hesabatlılıq və aşkarlıq", "Bələdiyyələrdə və bələdiyyə müəssisələrində arxiv işinin təşkili", "Bələdiyyə torpaqlarının idarə edilməsinin əsasları, bələdiyyə torpaqlarının istifadəsinə və mühafizəsinə nəzarətin xüsusiyyətləri", "Bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması və korrupsiya hüquqpozmalarının qarşısının alınması", "Bələdiyyə qulluqçularının etik davranış qaydaları", "Yerli (bələdiyyə) vergi və ödənişlərin yığılmasında bələdiyyələrin hüquq və vəzifələri", "Bələdiyyə aktlarının qəbulu və icrası", "Nağdsız hesablaşmalar və onların məqsədi" və digər mövzular üzrə məruzələr dinlənilib.

Eyni zamanda, bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı qarşıda duran vəzifələr müzakirə olunub, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi zamanı aşkar edilmiş xarakterik nöqsanlar və qanun pozuntularından bəhs edilməklə, bələdiyyə üzvləri və qulluqçularına bu kimi nöqsan və qanun pozuntularına yol verilməməsi ilə bağlı müvafiq tövsiyələr verilib, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Maarifləndirmə tədbirləri çərçivəsində, həmçinin Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti tərəfindən nəşr edilmiş "Yerli turizmin təşkilində bələdiyyələrin iştirakı" kitabının təqdimatı keçirilib, metodiki vəsait barədə iştirakçılara ətraflı məlumat verilib və bələdiyyə nümayəndələri arasında paylanılıb.

### "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 12, maddə 688; 2000, N 7, maddə 494; 2002, N 8, maddə 464; 2004, N 1, maddə 10, N 2, maddə 57, N 3, maddə 133, N 4, maddə 202; 2005, N 10, maddələr 874, 876, 902; 2006, N 11, maddə 927; 2007, N 1, maddə 1, N 2, maddə 82; 2009, N 6, maddə 399, N 11, maddələr 877, 878; 2010, N 11, maddə 944; 2011, N 4, maddə 269, N 7, maddə 611, N 11, maddə 987; 2012, N 6, maddə 519; 2014, N 3, maddə 237; 2016, N 6, maddələr 1012, 1017) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü maddənin birinci hissəsi üzrə:

1.1. yeddinci abzasa "məhkəmə qərarlarından" sözlərindən sonra "və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından" sözləri əlavə edilsin;

1.2. səkkizinci abzas doqquzuncu abzas hesab edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında qərar qəbul edir;".

2. 21-ci maddənin birinci hissəsi üzrə:

2.1. yeddinci abzasa "məhkəmə qərarlarından" sözlərindən sonra "və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından" sözləri əlavə edilsin;

2.2. beşinci - yeddinci abzaslar müvafiq olaraq altıncı - səkkizinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda beşinci abzas əlavə edilsin:

"qərardad;".

3. Aşağıdakı məzmunda 24-1-ci maddə əlavə edilsin:

"Maddə 24-1. Qərardad

Prokuror Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan hallarda inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında əsaslandırılmış qərardad qəbul edir.".

4. 27-ci maddə üzrə:

4.1. adına "Məhkəmə qərarlarından" sözlərindən sonra "və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından" sözləri əlavə edilsin;

4.2. birinci hissədə "prosessual qanunvericiliyində" sözləri "Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində" sözləri ilə əvəz edilsin və həmin hissəyə "məhkəmə qərarlarından" sözlərindən sonra "və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından" sözləri əlavə edilsin;

4.3. ikinci hissədə "Protest" sözü "Məhkəmə qərarlarından protest" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 15 dekabr 2017-ci il.*
*N 934-VQD*

### ”Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, N 10, maddə 607; 2005, N 10, maddə 905; 2008, N 8, maddə 701; 2014, N 6, maddə 620; 2015, N 2, maddə 93, N 11, maddə 1255, N 12, maddə 1442; 2016, N 8, maddə 1367; 2017, N 6, maddə 1059) 14-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. ikinci hissəyə "hesablanır" sözündən sonra "(bu maddənin dördüncü hissəsində nəzərdə tutulan hal istisna olmaqla)" sözləri əlavə edilsin.

2. dördüncü-doqquzuncu hissələr müvafiq olaraq beşinci-onuncu hissələr hesab edilsin və aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda keçmiş SSRİ vətəndaşının pasportu və ya digər sənəd əsasında 2006-cı il yanvarın 1-dək Azərbaycan Respublikasına gələrək burada daimi yaşayan, heç bir dövlətin vətəndaşlığına mənsub olmayan və şəxsiyyətini təsdiq edən etibarlı sənədləri olmayan şəxsin heç bir dövlətin vətəndaşlığına mənsub olmaması, habelə Azərbaycan Respublikasında daimi yaşaması faktı məhkəmə tərəfindən müəyyən edilir. Bu müddəa könüllü olaraq mənsub olduğu dövlətin vətəndaşlığından çıxmış şəxslərə şamil edilmir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 fevral 2018-ci il.*
*N 980-VQD*

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 755-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1,

maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299; Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 811-VQD, 814-VQD, 817-VQD nömrəli, 31 oktyabr tarixli 847-VQD, 851-VQD nömrəli, 17 noyabr tarixli 857-VQD, 870-VQD, 874-VQD, 876-VQD, 882-VQD nömrəli, 1 dekabr tarixli 898-VQD, 901-VQD, 913-VQD nömrəli və 15 dekabr tarixli 949-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 43.1-ci maddədə "394-1," rəqəmləri "394.0.5 (açıq məkanda reklam qurğularının tikintisi zamanı tikinti norma və qaydalarının pozulmasına münasibətdə), 394.0.6 (açıq məkanda reklam qurğularının istismara verilməsi qaydalarının pozulmasına münasibətdə), 394.0.7 (müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun göstərişlərinə və qərarlarına əməl etməməsinə münasibətdə), 394-1, 395.1-1," sözləri ilə əvəz edilsin.

2. 394.0.7-ci maddəyə "qərarlarına" sözündən sonra ", habelə reklam qurğularının tikintisi işləri ilə bağlı müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun həmin Məcəllə ilə müəyyən edilmiş yazılı göstərişlərinə və qərarlarına" sözləri əlavə edilsin.

3. aşağıdakı məzmunda 395.1-1-ci maddə əlavə edilsin:

"395.1-1. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun icazəsi alınmadan ölçülərindən asılı olmayaraq açıq məkanda reklam qurğularının tikintisinə, quraşdırılmasına və onlara konstruktiv dəyişikliklərin edilməsinə görə -

fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər on min manatdan on beş min manatadək məbləğdə cərimə edilir.".

4. 395.2-ci maddəyə "obyektlərinin" sözündən sonra "(açıq məkanda reklam qurğuları istisna olmaqla)" sözləri əlavə edilsin.

5. 428.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"428.7. Açıq məkanda reklam haqqında qanunvericiliyin pozulmasına, yəni:

428.7.1. müvafiq icazə, texniki şərtlər pasportu və icazə müqaviləsi olmadan, həmçinin onların tələbləri pozulmaqla açıq məkanda reklam yerləşdirilməsinə;

428.7.2. "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun və digər qanunvericilik aktlarının tələblərinə cavab verməyən reklamın açıq məkanda yerləşdirilməsinə;

428.7.3. müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun açıq məkanda reklam sahəsində nəzarətin həyata keçirilməsi çərçivəsində verdiyi yazılı göstərişlərin və qərarların (bu Məcəllənin 394.0.7-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) vaxtında və tam yerinə yetirilməməsinə görə -

fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan on min manatadək məbləğdə cərimə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 fevral 2018-ci il.*
*N 981-VQD*

## "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 8, maddə 603; 2006, N 6, maddə 482; 2007, N 8, maddə 745; 2008, N 3, maddə 154; 2009, N 12, maddə 948; 2011, N 11, maddə 983; 2012, N 6, maddə 509, N 7, maddə 668, N 11, maddə 1053; 2013, N 6, maddələr 607, 623, N 7, maddə 791, N 12, maddə 1484; 2014, N 1, maddə 7, N 2, maddə 97, N 6, maddələr 597, 604; 2015, N 3, maddə 255; 2016, N 4, maddə 645, N 6,

maddə 990, N 7, maddə 1244, N 11, maddələr 1770, 1775; 2017, N 5, maddə 738, N 6, maddə 1037, N 10, maddə 1772, N 11, maddə 1954; Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 872-VQD nömrəli Qanunu) 5.1-1-ci maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bələdiyyələrə daşınmaz əmlakın dövlət reyestrinin məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada və ödəniş əsasında verilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 13 fevral 2018-ci il.*
*N 999-VQD*

## ”Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən Çıxarış”ın və ”Torpaq sahəsinin planı və ölçüsü”nün təsvirlərinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 17 iyun tarixli 553 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 641-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 17 iyun tarixli 553 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 6, maddə 709; 2017, N 3, maddə 371; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 yanvar tarixli 1793 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın təsviri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bənddə "verilən" sözü "tərtib edilən" sözləri ilə əvəz edilsin.
2. Aşağıdakı məzmunda 1.5-ci bənd əlavə edilsin:

"1.5. Dövlət reyestrindən çıxarış hüquq sahibinin istəyi əsasında kağız formada təqdim edilir, yaxud elektron imza ilə təsdiqlənməklə "Elektron hökumət" portalında yerləşdirilərək hüquq sahibinin onu elektron üsulla əldə etməsi imkanı təmin olunur.".

3. 2.7-ci bənddə "verilir" sözü "təqdim olunur" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 20 fevral 2018-ci il.*
*N 1840*

## Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun həyata keçirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və ədalət mühakiməsinin səmərəli fəaliyyəti üçün güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyəti vardır. Hüquqi dövlətdə bu təsisatın rolunu nəzərə alaraq,

ölkəmizdə məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi sahəsində görülən işlər çərçivəsində vəkilliyin inkişafına dəstək vermək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

1.1. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin və Kollegiyanın digər strukturlarının fəaliyyətinin təmin edilməsi məqsədilə onun Bakı şəhərində müvafiq bina ilə təmin olunması üçün tədbirlər görsün;

1.2. Azərbaycan Respublikasının regionlarında apellyasiya məhkəmələrinin, ağır cinayətlər məhkəmələrinin və inzibati-iqtisadi məhkəmələrin yerləşdikləri Gəncə, Lənkəran, Sumqayıt, Şəki və Şirvan şəhərlərində Azərbaycan Respublikası Vəkillər Kollegiyasının vəkil qurumlarının fəaliyyətinin təmin edilməsi məqsədilə onların müvafiq binalarla (yerlərlə) təmin olunması üçün tədbirlər görsün;

1.3. vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə dövlət hesabına göstərilən hüquqi yardıma görə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinin I hissəsinə müvafiq olaraq müəyyən edilmiş məbləğin 3 dəfə artırılmasını təmin etsin;

1.4. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının maddi-texniki təminatı ilə bağlı məsələlərin həlli üçün tədbirlər görsün, o cümlədən Kollegiyanın istifadəsində olan binaların təmiri, zəruri kompüter avadanlığının və digər avadanlığın, habelə nəqliyyat vasitələrinin alınması məqsədilə vəsait ayırsın.

2. Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına tövsiyə edilsin ki:

2.1. ixtisas imtahanlarının müntəzəm keçirilməsini təşkil etməklə, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına yeni üzvlərin, xüsusən gənc hüquqşünasların qəbul edilməsi üçün şərait yaratsın;

2.2. göstərilən hüquqi xidmətlərin keyfiyyətinin daim yüksəldilməsi məqsədilə vəkillərin peşə hazırlığının və ixtisasının artırılması ilə bağlı zəruri tədbirlər görsün;

2.3. vəkillərin öz fəaliyyətində qanunçuluğa, ədalət mühakiməsinin prinsiplərinə və yüksək peşə standartlarına, o cümlədən əldə etdikləri məlumatların konfidensiallığı, hüquqi yardım üçün müraciət etmiş şəxslərə münasibətdə vicdanlı və nəzakətli davranış tələblərinə ciddi riayət etmələrini təmin etsin;

2.4. Azərbaycan Respublikasının şəhər və rayonlarında vətəndaşların yüksək keyfiyyətli hüquqi yardıma tələbatını təmin etmək məqsədilə regionlarda vəkillərin fəaliyyətinin stimullaşdırılması üçün tədbirlər hazırlayıb həyata keçirsin;

2.5. hüquqi məsləhətə ehtiyacı olan aztəminatlı şəxslər üçün Azərbaycan Respublikasının Vəkillər Kollegiyası tərəfindən pulsuz hüquqi xidmətlər göstərilməsini təşkil etsin;

2.6. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının fəaliyyətində şəffaflığın artırılması və ictimaiyyətlə əlaqələrin daha da genişləndirilməsi ilə bağlı tədbirlər görsün;

2.7. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının və vəkillərin fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini və hüquqi xidmətlərin elektron formada göstərilməsi təcrübəsini genişləndirmək üçün vəkilliyin vahid elektron informasiya sisteminin təşkili və bu sistemin "Elektron məhkəmə" informasiya sisteminə inteqrasiyası istiqamətində tədbirlər görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 fevral 2018-ci il.*
*N3707*